QARABAĞ AZƏRBAYCANDIR!



## “Naxçıvan həmişə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub”

3

## Dövlətçilik tarixinin, adət-ənənələrin, elm və mədəniyyətin təbliğinə hər zaman diqqət olub

7



Səs

№ 237 (6678) 24 dekabr 2022-ci il. Qiyməti 60 qəpik

# Güclü Lider, qalib Sərkərdə!

4



*Prezident İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasəti qısa müddətdə Azərbaycanı dünya birliyinin sayılıb-seçilən üzvünə, beynəlxalq tədbirlərin, qloballaşan dünyanın problemlərinin çözüldüyü məkana çevirdi. İnkişafın Azərbaycan modeli, multikulturalizm modelimiz dünyanın diqqətini özünə çəkdi, bir çox ölkədə öyrənilməyə başlandı və örnəyə çevrildi.*

## “Mehriban xanım Əliyeva AGF-nin prezidenti seçildikdən sonra federasiyanın uğurlu inkişafının əsası qoyuldu”



6

## “Cənubi Qafqazı təxribata sürükləyən qüvvələr var"



14

## Fransadan qondarma film...

13







## Uşaqlığımızın və xatirələrimizin fəsli



11

## Ronaldo Ərəbistan klubuna keçir?



Dünya çempionatındakı uğursuzluğu ilə gündəmə gələn məşhur portuqaliyalı futbol ulduzu Kriştiano Ronaldo dekabrın sonuna qədər Səudiyyə Ərəbistan klubu "Əl-Nəsr"lə müqavilə imzalaya bilər...

16

14

## Şam ağacını bəzəmək minimum neçəyə başa gəlir?



*Bildiyimiz kimi, Yeni İlə son 7 gün qalıb və artıq bir çox evlərdə ayın əvvəlindən şam ağacları hazırlanıb...*

# Bakı Metropolitenində stansiyaların sayı 76-ya çatdırılacaq

## *Prezident İlham Əliyev Bakı Metropoliteninin "Xocəsən" stansiyasının və elektrik deposunun açılışında iştirak edib*







***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Bakı Metropoliteninin "Xocəsən" stansiyasının və "Xocəsən" elektrik deposunun açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov Prezident İlham Əliyevə stansiyada və depoda görülən işlər barədə məlumat verdi.***





Bildirildi ki, Bakı Metropoliteni xətlərinin ümumi uzunluğu 40,7 kilometrdir. Metropolitenin Qırmızı, Yaşıl və Bənövşəyi xətləri üzrə ümumilikdə 27 stansiyası fəaliyyət göstərir.

Xatırladaq ki, 2016-cı il aprelin 19-da Prezident İlham Əliyevin iştirakı ilə Bakı Metropoliteninin üçüncü - Bənövşəyi xəttinin açılışı olub. Bənövşəyi xətt ilə "Avtovağzal" və "Memar Əcəmi" stansiyaları da istifadəyə verilib. Ötən il mayın 29-da isə bu xətt üzrə üçüncü - "8 Noyabr" stansiyasının açılışı olub.

Qeyd olundu ki, "Xocəsən" stansiyası Bənövşəyi xətt üzərində yerləşən dördüncü stansiyadır. Kompleksin ümumi sahəsi 4200 kvadratmetr, stansiya platformasının uzunluğu 144 metrdir. Stansiya Lökbatan qəsəbəsi və "Sədərək" Ticarət Mərkəzi istiqamətindən hərəkət edən vətəndaşların nəqliyyat problemlərinin aradan qaldırılmasında mühüm rol oynayacaq. Bu stansiyada Almaniyanın "ThyssenKrupp Fahrtreppen" şirkətinin istehsalı olan iki eskalator quraşdırılıb. "Xocəsən" stansiyası xəttin başlanğıcında yerləşir və qatarların sərnişinlərin tələbatına uyğun intensiv hərəkətinin təmin edilməsinə şərait yaradacaq. Həmçinin "8 Noyabr" stansiyasının arxasında dönmə kamerası yerləşdiyindən intervalın tənzimlənməsi rahat olacaq.

Məlumat verildi ki, "Xocəsən" elektrik deposu Bakı Metropoliteninin sayca ikinci deposudur və 24 hektardan çox ərazini əhatə edir. Üç mərhələdən ibarət inşaat layihəsinin hazırda birinci mərhələsi istifadəyə verilib.

"Xocəsən" elektrik deposunda iki içməli su anbarı, iki yanğın su anbarı, üç baxış qanovu və xidməti otaqlar, qatarların hərəkətini idarə etmək üçün blok-post, elektrik yarımstansiyası, təmir və texniki baxış infrastrukturu yaradılıb.

Daha iki mərhələ üzrə işlər xəttin yeni stansiyaları və tunelləri inşa olunduqca tələbata uyğun görüləcək. Belə ki, ikinci mərhələ üzrə hərəkət qatarına xidmət üçün məişət otağı ilə dayanma korpusu, qatarların yuyulması kamerası, təkərlərin diaqnostika kompleksi, yanacaq-sürtkü materialları anbarı, dönmə qurğuları, kompressor stansiyası, təmir-dayanacaq binası üçün qazanxana inşa olunacaq. Üçüncü mərhələdə isə vaqonların təmiri və istehsalı korpusu, inzibati və məişət binaları, dispetçer idarəetmə məntəqəsi və vaqon təmiri binaları üçün qazanxana, qaldırıcı kran estakadası ilə texnoloji platformanın tikintisi nəzərdə tutulur.

Qeyd edək ki, ölkəmizdə müasir infrastrukturun qurulması bütün sahələri, o cümlədən nəqliyyatın əhəmiyyətinin xüsusilə artdığı indiki dövrdə metropoliteni də əhatə edir. Hazırda Bakı Metropoliteninin konseptual inkişaf proqramına uyğun olaraq işlər sürətlə davam etdirilir. Proqrama əsasən, perspektivdə metronun stansiyalarının sayı 76-ya çatdırılacaq.

# "Bizim hər zaman öz siyasətimiz olub"

*"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 122-ci kitabı çapdan çıxıb*




***Biz heç bir zaman özümüzü nəhəng qonşularımızın siyasətinə uyğunlaşdırmamışıq. Bizim hər zaman öz siyasətimiz olub, hansı ki, beynəlxalq hüquq, ədalət, beynəlxalq təşkilatların qərarları və sənədləri, həmçinin müdriklik üzərində formalaşıb. Buna görə də düşünürəm ki, biz uğur əldə etmişik. Azərbaycan artıq sabit siyasi mövqeyə malikdir, həmçinin iqtisadiyyatımız da sabitdir. Biz müstəqil olmaq üçün iqtisadi anlamda yatırımlar etmişik. Yoxsa biz özümüzü asılı hiss edərdik.***

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 122-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı İtaliyaya işgüzar səfəri çərçivəsində "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzusunda 48-ci Beynəlxalq Çernobbio Forumunda söyləyib. Bu kitaba Prezident İlham Əliyevin Azərbaycanın İtaliyadakı səfirliyinin yeni binasının açılış mərasimində iştirakına, İtaliya Prezidenti və Nazirlər Şurasının sədri ilə görüşlərinə dair materiallar, İtaliyanın "İl Sole 24 ORE" qəzetinə müsahibəsinin mətni də daxil edilib.

AZƏRTAC xəbər verir ki, çoxcildliyin 122-ci kitabında toplanan materiallar 2022-ci ilin sentyabr-oktyabr aylarını əhatə edir. Yeni nəşrdə Prezident İlham Əliyevin Özbəkistana səfəri çərçivəsində keçirdiyi yüksəksəviyyəli görüşlər, iştirak etdiyi tədbirlər haqqında informasiyalar, Şanxay Əməkdaşlıq Təşkilatı Sammitində çıxışının mətni yer alıb. Kitabda Azərbaycan Prezidentinin, həmçinin Bolqarıstana rəsmi səfəri çərçivəsində keçirdiyi görüşlərə dair materiallar, Prezident Rumen Radev ilə birgə mətbuata bəyanatının, Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində çıxışının mətni də verilib.

Prezident İlham Əliyev oktyabr ayında Qırğız Respublikasına dövlət səfəri çərçivəsində Birinci Dövlətlərarası Şuranın məhdud və geniş tərkibdə iclaslarında iştirak edib, Prezident Sadır Japarov ilə birgə mətbuata bəyanat verib. Azərbaycan Prezidentinin iştirakı ilə Bişkekdə Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya Təhsil-Tərbiyə Kompleksinin və Nizami Gəncəvi adına 103 saylı məktəbin açılışı keçirilib. Bütün bunlar haqqında informasiyalar 122-ci kitabda toplanıb.

Dövlətimizin başçısı xarici səfərləri ilə zəngin olan oktyabr ayında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Çex Respublikasının Baş naziri Petr Fialanın dəvəti ilə "Avropa siyasi birliyi" Zirvə toplantısında iştirak etmək üçün Praqada olub. Prezident İlham Əliyev səfər çərçivəsində görüşlər keçirmək, danışıqlar aparmaq və tədbirlərdə iştirak etməklə yanaşı, Azərbaycan televiziya kanallarına müsahibə də verib. Görüşlər haqqında informasiya və müsahibənin mətni də bu kitaba daxil edilib.

Oxucu yeni kitabda dövlətimizin başçısının sentyabr ayında Laçın şəhərində Azərbaycan Bayrağını ucaltdıqdan sonra çıxışının mətni, Füzuli rayonuna, Şuşa şəhərinə səfərləri haqqında geniş informasiyalarla tanış ola bilər. Oktyabr ayında isə ölkə rəhbəri Ağdam rayonuna səfər edib. Zəngin proqramı ilə yadda qalan bu səfər zamanı Prezident İlham Əliyev Bərdə-Ağdam avtomobil yolunda görülən işlərlə tanış olub, bir sıra mühüm infrastruktur obyektlərinin təməlini qoyub, Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılış mərasimində iştirak edib. Həmçinin "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" - postmünaqişə dövründə bərpa və yenidən qurulmanın aparıcı qüvvəsi kimi" mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumunda nitq söyləyib. Bütün bunlar haqqında informasiyalarla yeni nəşrdə tanış olmaq mümkündür.

Yeni dərs ili ərəfəsində Prezident İlham Əliyevin iştirakı ilə Bakının Suraxanı rayonunda 87 saylı, Binəqədi rayonunda 335 saylı tam orta məktəblərin yeni binalarının, Nəsimi rayonunda 35 saylı tam orta məktəbin yeni korpusunun açılışı olub. Açılış mərasimləri haqqında materiallar bu nəşrdə verilib.

Dövlətimizin başçısının IV Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin iştirakçılarına məktubunun mətni, Bakı Ekspo Mərkəzində keçirilmiş IV Azərbaycan Beynəlxalq Müdafiə - ADEX və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri ilə tanışlığına dair materiallar da yeni kitaba daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 122-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## "Naxçıvan həmişə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub"



*Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi muxtar respublikanın ictimaiyyətinə təqdim edilib*





***Dekabrın 23-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflini muxtar respublikanın ictimaiyyətinə təqdim edib. AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.***

Samir Nuriyev təqdimat mərasimində çıxış edərək Naxçıvan Muxtar Respublikasının həmişə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğunu, ölkəmizdə aparılan quruculuq işlərinin tərkib hissəsi kimi Naxçıvanın inkişafı istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

Prezident Administrasiyasının rəhbəri qeyd edib ki, Prezident İlham Əliyev sosial-iqtisadi inkişaf məsələlərinin həlli ilə yanaşı, həm də dövlət idarəçiliyinin təkmilləşdirilməsini, bütün sahələrdə şəffaflığın təmin edilməsini, inkişafa mane olan mənfi halların aradan qaldırılmasını əsas vəzifələrdən biri kimi müəyyənləşdirib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi institutunun yaradılması effektiv idarəçiliyin təmin edilməsi, vətəndaşla dövlət orqanları arasında dialoqun müasir tələblər səviyyəsində və qanun çərçivəsində qurulması, iqtisadi, sosial, mədəni və digər məsələlərin operativ və səmərəli həlli məqsədi daşıyır.

Samir Nuriyev muxtar respublikanın yeni rəhbərliyinin qarşıda duran vəzifələrin vaxtında, tam və səmərəli şəkildə icrasını təmin etməklə Azərbaycan Prezidentinin göstərdiyi böyük etimadı doğruldacağına ümidvar olduğunu deyib.

# Güclü Lider, qalib Sərkərda!



***Prezident İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasəti qısa müddətdə Azərbaycanı dünya birliyinin sayılıb-seçilən üzvünə, beynəlxalq tədbirlərin, qloballaşan dünyanın problemlərinin çözüldüyü məkana çevirdi. İnkişafın Azərbaycan modeli, multikulturalizm modelimiz dünyanın diqqətini özünə çəkdi, bir çox ölkədə öyrənilməyə başlandı və örnəyə çevrildi. Azərbaycan kosmik dövlətlər ailəsinə daxil oldu, müasir, modern dövlətə çevrildi.***

Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını dönmədən yüksəldir. Bu gün isə Azərbaycan öz qüdrətli Liderinin uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm gələcəyə doğru inamla addımlayır.

2003-cü il oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə dövlət başçısı seçilməsindən ötən 19 ildə dövlət başçısının uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Azərbaycanın uğurlu inkişafı təmin edilib və qarşıda duran bütün əsas vəzifələr uğurla icra edilib. Bunun təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir.

Son 19 ildə müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Müstəqil dövlətimizdə kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər, davamlı inkişaf əldə olunan nailiyyətlərdir.

## ÜMUMMİLLİ VƏ QLOBAL MƏSƏLƏLƏRİ BÖYÜK PEŞƏKARLIQLA HƏLL EDƏN PRAQMATİQ LİDER

Prezidentin müntəzəm olaraq bölgələrə etdiyi səfərlərdə yeni obyektlər açılır, infrastruktur layihələri icra olunur. Elm və təhsilə, səhiyyəyə, hərbiyə, mədəniyyətə, sosial-iqtisadi məsələlərə, bir sözlə bütün sahələrə dövlət başçısının xüsusi diqqəti və qayğısı müşahidə olunur.

Prezident İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir,hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur. Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir. Dövlət başçısının xalqın qəhrəmanı, hərbi sərkərdəsi olması onun intellektual potensialından və səriştəli idarəetmə bacarığından irəli gəlir.

Ötən on doqquz il, aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. İqtisadi siyasətin əsasən, sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənərək, cəmiyyətin sosial sifarişini əks etdirmişdir. Aztəminatlı vətəndaşların sosial müdafiəsi, istehsalçı və istehlakçının maraqlarının uzlaşdırılması Cənab İlham Əliyevin prezidentlik dövrünü səciyyələndirən prioritet istiqamətlərdən biri kimi diqqəti çəkir.

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq, humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb, təhsildə özəl sektor formalaşıb.

## BEYNƏLXALQ ALƏMDƏ AZƏRBAYCAN ETİBARLI VƏ STRATEJİ TƏRƏFDAŞ KİMİ TANINIR

Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəklikləridir. Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər vermiş oldu. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir.

## AZƏRBAYCAN CƏNUBİ QAFQAZ REGİONUNDA ƏN GÜCLÜ ORDUYA MALİK ÖLKƏ STATUSUNU DAŞIYIR

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirildi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu nümayişi oldu. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusu Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağı ordumuzun hansı gücə sahib olduğunun təzahürüdür. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Tarixi qələbənin qazanılmasında Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğulların şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi.

## XALQIMIZA QƏLƏBƏ SEVİNCİNİ YAŞADAN ALİ BAŞ KOMANDAN

Qələbəmizin təntənəsi olaraq Zəfər paradı keçirildi. Silahlı Qüvvələrimiz döyüş meydanında əldə etdiyi nailiyyətlər, o cümlədən düşmən tərəfindən ələ keçirilən qənimətlər, zirehli və yüngül texniklar, artilleriya vasitələri və topları bu paradda nümayiş etdirməklə, düşmən ordusuna böyük zərbə vurduğunu göstərmiş oldu. Dövlətimizin başçısının 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən hərbi paradda söylədiyi bu fikirləri xatırlatmaq yerinə düşərdi: ”Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”. Nəhayət həmin gün yetişdi. Bütün dünya qalib Azərbaycan Ordusunun Zəfər paradını gördü. Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün bərpa edilməsinə nail olduq. Xalqımız bu qələbənin sevincini, onun doğurduğu qürur hissini yaşayır.

Azərbaycan bayrağının işğaldan azad olunan torpaqlarımızda ucaldılmasını hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisədir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi bizim ölkəmiz üçün yeni dövr başlayır: ”Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq”.

Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu tarixi gündə gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Bu gün Azərbaycan qalib dövlətdir. Xalq-iqtidar birliyi bizi zəfərə, qələbəyə apardı. Prezident İlham Əliyevin son 19 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 il ərzində xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır.

***Zümrüd BAYRAMOVA***

# "Son 20 ildə Azərbaycan gimnastikası sürətli inkişaf yolu keçib"

## *Azərbaycan Gimnastika Federasiyasının yenidən qurulmasının 20 illiyi qeyd edilib*









***Dekabrın 23-də Azərbaycan Gimnastika Federasiyasının (AGF) yenidən qurulmasının 20 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib. Əvvəlcə yubiley münasibətilə videoçarx nümayiş olunub.***

Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov mərasimdə çıxış edərək AGF-in ötən 20 ildə olduqca şərəfli yol qət etdiyini bildirib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycan Gimnastika Federasiyasına rəhbərlik etdiyi vaxtdan Azərbaycan gimnastikasının böyük uğurlara imza atdığını vurğulayan Altay Həsənov deyib: "İdmançılarımız ötən müddətdə beş Olimpiadada iştirak edib, dünya çempionatlarında və digər böyük yarışlarda medallar qazanıblar. AGF Beynəlxalq və Avropa Gimnastika federasiyalarının fəal üzvüdür. Hamımız bir ailə kimiyik. Əminik ki, gimnastlarımız ənənələri davam etdirərək daha böyük nailiyyətlər qazanacaqlar".

Şəkidə gimnastika növləri üzrə birgə yarışların keçirildiyini xatırladan AGF-in vitse-prezidenti bu möhtəbər turnirin regionda əsl bayram ab-havası yaratdığını vurğulayıb.



Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov cari ilin ölkə idmanı üçün bir çox yubileylərlə əlamətdar olduğunu bildirib, bu baxımdan Milli Olimpiya Komitəsinin 30, Azərbaycan Gimnastika Federasiyasının yenidən qurulmasının 20 illik yubileylərini xüsusi vurğulayıb. Nazir ötən 20 ildə Azərbaycan Gimnastika Federasiyasının Mehriban xanım Əliyevanın rəhbərliyi ilə çox böyük uğurlar əldə etdiyini deyib. Federasiyanın ölkəmizdə idmanın bu növünün inkişafı istiqamətində genişmiqyaslı fəaliyyətini qeyd edən Fərid Qayıbov Milli Gimnastika Arenasının dünyada analoqu olmayan mükəmməl idman qurğusu kimi tanındığını bildirib.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə yubiley münasibətilə təbriklərini çatdırıb. Qeyd edib ki, Mehriban xanım Əliyevanın federasiyaya rəhbərlik etdiyi ötən 20 ildə Azərbaycan gimnastikası sürətli inkişaf yolu keçib. Bu gün AGF dünyanın aparıcı gimnastika federasiyalarından biridir. Azərbaycan gimnastika üzrə ən mühüm beynəlxalq turnirlərə yüksək səviyyədə ev sahibliyi edib. "Həqiqətən də idman gimnastika ilə başlayır, atletika ilə davam edir", - deyə Ç.Hüseynzadə bildirib.

Gənclər və idman nazirinin müavini Mariana Vasileva çıxışında ötən illərdə gimnastika üzrə böyük nailiyyətlərin qazanıldığını vurğulayıb. Mariana Vasileva Azərbaycanda gimnastikanın belə yüksək inkişafına görə Mehriban xanım Əliyevaya təşəkkürünü bildirib. Sonra federasiyanın 20 illik uğurlu fəaliyyətindən bəhs edən "20 il inkişafda" kitabının təqdimat mərasimi keçirilib. Tədbirdə digər çıxış edənlər də AGF-in yubileyi münasibətilə təbriklərini çatdırıblar.

---

# "Azərbaycanın dinamik inkişafı İlham Əliyevin parlaq siyasətinin nəticəsidir"

***Dost və qardaş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi doğum günü münasibətilə təbrik edirik. Azərbaycan Prezidenti hər zaman öz hümanistliyi, nəcibliyi, yüksək dünya görüşü və dərin intellekti, parlaq zəkası və güclü Diplomatik bacarığı ilə bütün dünyada özünəməxsus yer tutmuş bir prezidentdir və bütün dünyada yüksək nüfuza və dərin hörmətə malik, sayılıb seçilən dövlət başçılarındandır.***

Azərbaycanın Avropa və Qərb ölkələri ilə ortaq enerji layihələrinin reallaşması və Azərbaycan iqtisadiyyatının yüksələn xəttlə sürətlə inkişaf etməsi Prezident İlham Əliyevin zəngin Diplomatiyasının parlaq daxili və xarici siyasətinin nəticəsidir. Prezident İlham Əliyev güclü Diplomat praqmatik siyasətçi olmaqla bərabər güclü iqtisadçıdır. Bölgənin bütün nəhəng iqtisadi və enerji layihələrinin müəllifi və təşəbbüskarı məhz cənab İlham Əliyevdir.

Qafqazda və Türk dünyasında heçbir layihə Azərbaycansız və İlham Əliyevsiz reallaşa və heçbir addım İlham Əliyevsiz atıla bilməz. Cənab İlham Əliyev nəinki öz ölkəsinin və xalqının hətta bütün bölgənin təhlükəsizliyi və əmin-amanlığı üçün əzmlə çalışmaqda bölgədə və bütün dünyada sülhə əmin-amanlığa öz töhvəsini verməkdədir. Hazırda Prezident İlham Əliyevin apardığı uğurlu siyasət Azərbaycan iqtisadiyyatını daha da dayanıqlı edir və sürətli inkişafı təmin etməklə Azərbaycanın gələcəyi üçün daha da yüksək uğurlar və böyük nailiyyətlər yaradır.

Azərbaycan prezidentinin parlaq siyasəti hərbi sahədə də öz töhvəsini verib. Azərbaycan ordusunun 44 günlük müharibədə işğalçı Ermənistan üzərində qələbə qazanmasında prezident İlham Əliyevin ordu quruculuğu siyasəti əhəmiyyət kəsb etdi. Və məhz bunun nəticəsidir ki 2020-ci ilin 44 günlük ikinci Qarabağ müharibəsində Azərbaycan ordusu Ermənistan ordusu üzərində analoqu olmayan qələbə qazanmışdır.

Hazırda məhz Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycanda güclü xalq-iqtidar və xalq-dövlət birliyi mövcuddur. Prezident İlham Əliyevə olan ümumxalq sevgisi və rəğbəti bütün Azərbaycan xalqını Azərbaycan dövlətinin və iqtidarının ətrafında sıx birləşdirmişdir. Təkcə Azərbaycan daxilində yox Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda yaşayan Azərbaycanlıların və həmçinin Arazın Cənubundakı bütün Güney Azərbaycanlıların cəm halda İlham Əliyevə böyük sevgisi vardır. 2020-ci ilin 44 günlük Qarabağ müharibəsində bu açıq-aşkar göründü. Hazırda dünyanın hər yerində prezident İlham Əliyevə böyük sayqı və ehtiram vardır. Bunun da səbəbi İlham Əliyevin müdrikliyi hümanistliyi yüksək insanpərvərliyi və öz siyasi xəttində ali və insani dəyərləri rəhbər tutmasıdır. Əsası dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulan tolerantlıq və multikultural siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdə və bu ali dəyərlər daha da inkişaf etdirilməkdədir. Azərbaycan daxilində yaşayan bütün etnik xalqlar və müxtəlif dini inanclar bir-biri ilə qardaşlıq və doğmalıq şəraitində yaşayır və günü gündə də qardaşlaşmaqda və doğmalaşmaqdadır. Məhz İlham Əliyevin tolerantlıq və multikultural siyasəti Azərbaycanı dünyada ən nümunəvi ölkələr sırasına yüksəltmişdir. Hazırda Azərbaycanda yaşayan və Azərbaycandan xaricə və İsrailə köçmüş bütün Yəhudilər hər zaman prezident İlham Əliyevə sonsuz sevgi və rəğbət bəsləyir. İsraildəki Avropa və ABŞ-dakı eləcə də Rusiyadakı azərbaycanlı-Yəhudi icması cənab İlham Əliyevə böyük hörmət və ehtiram bəsləyir. Prezident İlham Əliyevin yüksək insanpərvərliyi və nəcib insani keyfiyyətlərə malik olması onu bir lider və bir şəxsiyyət olaraq hər zaman nəinki Azərbaycan daxilində hətta bütün dünyada sevdiririr. Yəhudi xalqı da hər zaman cənab İlham Əliyevi özünün ən yaxın dostu hesab edir.

Azərbaycan hal-hazırda dünya birliyində çox önəmli və əhəmiyyətli yerə malikdir. Dünyanın ən önəmli yüksək çəkiyə malik zirvə görüşlərində Azərbaycan Prezidenti xüsusi hörmətlə qarşılanır. Bu cənab İlham Əliyevin uğurlu siyasəti və parlaq strategiyaları nəticəsində Azərbaycanın daha da güclənməsi və inkişaf etməsi nəticəsindədir.

Azərbaycanın İsraildə Səfirlik açması da prezident İlham Əliyevin tarixə qızıl hərflərlə yazılacaq uğurlu Diplomatik addımıdır. Cənab İlham Əliyevin tolerant siyasəti uğurlu strateji addımları nəticəsində Yəhudi xalqı ilə Azərbaycan xalqının hələ minillərə dayanan dostluğu və qardaşlığı Azərbaycan və İsrail dövlətinin dostluğu daha da da inkişaf edəcək və daha da möhkəmlənəcəkdir.

Prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik edir uzun ömür və can sağlığı arzu edirik.

***İsrail Təhlükəsizlik Akademiyasının Azərbaycan Respublikasındakı Nümayəndəliyi***

## "Mehriban xanım Əliyeva AGF-nin prezidenti seçildikdən sonra federasiyanın uğurlu inkişafının əsası qoyuldu"




Bu gün biz Azərbaycan Gimnastika Federasiyasının (AGF) 20 illiyini qeyd edirik, uzun, 20 illik inkişaf yolu keçmişik. SİA xəbər verir ki, bunu Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov dekabrın 23-də AGF-nin yenidən qurulmasının 20 illiyinə həsr olunmuş yubiley tədbirindən sonra jurnalistlərə açıqlamasında deyib.

A.Həsənov bildirib ki, 2002-ci ildə Mehriban xanım Əliyeva Azərbaycan Gimnastika Federasiyasına prezident seçildikdən sonra federasiyanın uğurlu inkişafının əsası qoyuldu. "Ötən illər ərzində idmançılarımız 5 dəfə olimpiya oyunlarında iştirak ediblər, irimiqyaslı yarışlarda mükafatlar qazanıblar. Bu illər ərzində biz beynəlxalq səviyyədə çoxsaylı məşqçilər, hakimlər hazırlamışıq", - deyə A.Həsənov əlavə edib. A.Həsənov bildirib ki, Azərbaycanın 29 bölgəsində Gimnastika Federasiyasının bölmələri açılıb və inkişaf edir.

"Əlbəttə, çətinliklərimiz də olub, lakin bunların öhdəsindən məharətlə gəlmişik. Bizim federasiyamız böyük bir ailədir və bu ailənin başında Mehriban xanım Əliyeva dayanır. Əminəm ki, növbəti 20 ildə daha çox nailiyyətlər əldə edəcəyik. Ölkəmiz inkişaf edir və biz də inkişaf edəcəyik, uğurlarımız qarşıdadır", - deyə AGF-nin vitse-prezidenti qeyd edib.

# Ermənilərin rus düşmənçiliyi

*Qərb İrəvandan Rusiyaya qarşı ikinci cəbhə açılmasını istəyir*






Ermənilər xəyanət damğasını həmişə kürəklərində daşıyırlar. Onlar üçün bunu etmək o qədər də çətin deyil, bu gün dost dediyini sabah çox asanlıqla üçüncüyə sata bilirlər. Həm də bu xarakter onlarda genetic olduğundan bunun fərqində də deyillər. Yəni, xəyanət erməni toplumunun həyat tərzidir, bununla nəfəs alırlar, gələcək planlarında bu yanaşma olmadan heç bir xətt çəkilmir, həyata keçirilmir. Erməni-türk savaşları, münasibətləri tarixində elə bir hadisə yoxdur ki, orada Rusiya və rusların adı çəkilməsin. Bütün dönəmlərdə, Rusiyanın bütün dövlət quruluşlarında ermənilərə xüsusi yanaşma olub, bu, bir faktdır. Niyə və nə üçün, bu artıq başqa bir yazının ana xəttidir. Erməniləri Qafqaza gətirən, məskunlaşdıran, müsəlmanların canına salan da şimal qonşumuzdur. Erməniləri bəsləyən, onlara qucaq açan, torpaqlar bağışlayan və nəhayət onlar üçün dövlət quran da Rusiyadır. Amma, bu qədər qayğının, diqqətin müqabilində ruslara ilk fürsətdəcə arxa çevirən, satan, xəyanət edən də, təəccüblü də olsa ermənilərdir.

Birinci Qarabağ müharibəsində ermənilər ov tüfəngləri ilə üstümüzə gələndə biz əliyalın idik, çünki mərkəzi hökumət - Moskva yerli hakimiyyətdəki "qalın kafalıların" əli ilə bütün ov silahlarını müsadirə etmişdi. Biz avtomat əldə edəndə ermənilərin topu var idi və bütün bunlar ermənilərin sovet ordusundakı dostları tərəfindən qarşılanırdı. Və şahidi olduğumuz həmin hərbi yardımlar sayəsində ermənilər, daha doğrusu Ermənistan silahlı birləşmələri Azərbaycanın 20 faiz torpaqlarını ələ keçirə bildilər. Mərkəzi hökumət və SSRİ-nin xarabalığı üzərində qurulmuş Rusiya hökumətindəkilər isə səsimizi eşitmək belə istəmədilər, əksinə ötən 30 il ərzində bu işğalı legitimləşdirməyə çalışdılar. Hətta, prosesə fransızları - bütün dövrlərin barbarlarını da qoşdular.

Bütün bunlara rəğmən Ermənistanın Rusiyaya, ermənilərin ruslara münasibəti necədir, bilirsinizmi? Əlbəttə, keçmişini unudan, yuxarıda dediyimiz kimi, xəyanəti özünün yaşam tərzi kimi seçən ermənilər Azərbaycanla müharibədə uğradıqları ağır məğlubiyyətdə günahı özlərində yox, Rusiya və ruslarda axtardılar. Sən demə müharibə dövrü Rusiya Dərbənd istiqamətindən, eyni zamanda Xəzər dənizindən Azərbaycana qarşı hərbi əməliyyat-



lar aparmalı imişlər. Rusiyanın Gümrüdəki 102-ci ordusu ayağa qalxmalı və Azərbaycana qarşı müharibədə Ermənistanın yanında olmalı imiş. Rusiya Ukraynada olduğu kimi, bütün hərbi arsenalını işə salmadığından "bədbəxt" ermənilər məğlub olublar. Budur, Ermənistanın və ermənilərin düşüncəsi, başındakı plan, realliq.

Müharibədə ağır məğlubiyyət erməniləri ağıllandırmadı, sərhəddə törətdikləri təxribatlardan sonra başlarına enən zərbədən bir nəticə çıxarmadılar, dünya da İrəvandan suveren hüquqlara hörmətlə yanaşma tələb edir, amma "hay"lar yenə öz işlərindədirlər. Qarabağ Azərbaycandır dedik, Ermənistandakı indiki hakimiyyət müharibədən əvvəlki ritorikasını dəyişsə də, Qarabağın ərazi yox, hüquqi bir məsələ olduğunu etiraf edir. Yəni, Ermənistan ərazi iddialarından sözdə imtina edir, amma əməldə yenə prosesi körükləmək iddasındadır. Qarabağda başqa ad altında ordu saxlayır. Yeraltı sərvətlərimizin talanmasını Qarabağdakı separatçıların əli ilə davam etdirir. Və günlərin bir günündə Azərbaycan öz haqq səsini qaldıranda Ermənistanın səsi okeanın o tayından, beynəlxalq təşkilatlardan gəldi. Bu da işə yaramayanda isə yenə də günahı Rusiyada və Rusiyanın ərazilərimizdə müvəqqəti yerləşdirilmiş sülhməramlılarında gördülər.

"Voskanapat" analitik mərkəzinin rəhbəri Hrant Melik-Şahnazaryan hesab edir ki, Ermənistan-Rusiya münasibətlərindəki son prosesləri nəzərə alsaq, iki ölkə arasında müttəfiqlik münasibətləri praktiki olaraq mövcud deyil: "İrəvan daim Rusiyanı ən yüksək səviyyədə tənqid etdiyinə görə Rusiya Ermənistanın maraqlarını digər regionlardakı maraqları naminə qurban verməkdə davam edir". Melik-Şahnazaryan əminliklə ifadə edib ki, bu, Ermənistan üçün fəlakətli dərəcədə pisdir və "satqınları aradan qaldırmaqla" vəziyyəti düzəltmək olar. Yaxın gələcəkdə Rusiyadan regionda hansı davranışın gözlənilə biləcəyi kontekstində Melik-Şahnazaryan əmindir ki, "sıfır diplomatiya olacaq".

Analitik qeyd edib ki, Kreml artıq Azərbaycan və Ermənistan rəhbərləri ilə heç nə danışmayacaq. Putin administrasiyası sadəcə olaraq zamanla oynamağa çalışacaq və məncə, çox gec olmayacaq ilk fürsətdə Ermənistana göstərişlər verməyə başlayacaq.

Ermənistan mətbuatı Rusiya haqqında hədyanlar yağdırmaqda, bu ölkəni qorxaq adlandırmaqda davam edir, əsas hədəf də, təbii ki, Rusiyanı növbəti oyunlara cəlb etməkdir. Ermənilərin təbirincə, artıq dünyanın bütün demokratik ölkələri, bütün beynəlxalq təşkilatlar Azərbaycanın məsuliyyət daşıdığını bəyan ediblər, amma Rusiya yenə qorxaqlıq edir ... Ermənilər sual edir, niyə Rusiya Ukraynanın suveren ərazisi sayılan Krımı ilhaq edir və oranı legitimləşdirməyə çalışır, amma Qarabağ "xalqına" qarşı bu münasibəti görmürük. Əslində bu, ermənilərin Rusiyaya iradından çox təzyiq etmək niyyətidir. "Rusiya Dövlət Duması heç vaxt Qarabağın müstəqilliyini tanımayıb" ifadəsi əslində ermənilərində beyninin məhsulu deyil və ola da bilməz. Bütün bu tərtiblərin ünvanı xaricdəki erməni lobbisinin tasmasını əlində tutanlardır. Ermənilər Rusiya qoşunlarının KTMT qoşunları kimi nə 2016-cı ilin aprelində dörd günlük müharibə zamanı, nə 2020-ci ildəki 44 günlük müharibə başlayandan sonra köməyə gəlmədiklərindən gileylənirlər. Putin "Bu müharibə Azərbaycan ərazisində gedir" ifadəsini Rusiya prezidentinin bəhanəsi adlandıran ermənilər zamanın, dövrün dəyişdiyini xatırladaraq əlavə edirlər ki, bugünkü Azərbaycan 1990-cı illərin Azərbaycanı deyil, kifayət qədər döyüş qabiliyyətinə malik ordu yaratmağı bacaran, kifayət qədər uğurlu müttəfiqlərlə - Türkiyə, Pakistan, İsrail və Böyük Britaniya ilə əhatə oluna bilən tamam başqa dövlətdir.

Ermənilər diplomatik cəbhədə baş verənlərdən danışarkən deyirlər ki, Azərbaycan özünü çox güclü hiss edir, xüsusən də Ukraynadakı müharibə səbəbindən Rusiya Azərbaycan-Türkiyə dünyasından asılı vəziyyətə düşüb. Azərbaycan yaxşı başa düşür ki, Moskva ondan asılıdır, təbii ki, Türkiyədən daha çox asılıdır, lakin Türkiyədən asılılıq müəyyən dərəcədə Azərbaycandan asılılığa qədər uzanır. Onlar yaxşı bilirlər ki, Moskvanın diplomatik rıçaqları yoxdur.

Əslində Ermənistanın Rusiyadan potensial düşmən düzəltmək cəhdinin arxasında məkrli planların olduğu ortadadır. Qərb Ukraynada gedən müharibədə daha böyük və sürətli uğur əldə etmək üçün yollar axtarır. Ermənistandan Rusiyaya qarşı ikinci cəbhənin açılması böyük planın bir hissəsidir. Rusiya cənubda NATO-nun ən böyük dövləti ilə Ermənistan vasitəsilə həmsərhəddir. Türkiyə ilə sərhəddə Rusiya sərhədçiləri dayanıb. Bu, Qərb üçün maneədir və hybrid müharibəsində vasitəçi olmağa can atan Ermənistan Ukraynada olduğu kimi Qərbin dəstəyi və hərbi yardımı ilə ərazisindəki Rusiyanın 102-ci ordusunu çıxartmaq və fransız, ya da amerikalı hərbçiləri burada "məskunlaşdırmaq" istəyir. Bunu Ermənistanın təkbaşına edəcəyi ağlabatan deyil, amma mümkünsüz də deyil. Ermənistan adəti üzrə bu işi başqalarına həvalə edəcək.

Azərbaycan-Ermənistan-Rsiya XİN başçılarının birgə görüşünün təxirə salınmasında Ermənistan tərəfinin səbəbkar olması da Rusiyanı oyundankənar vəziyyətdə saxlamaq planının bir hissəsidir. Digər tərəfdən bu, həm də Rusiya ilə Qərbin sülh müqaviləsi ilə bağlı mübarizəsidir. Qərb Ermənistanı ilin sonuna qədər sülh müqaviləsi bağlamağa məcbur edir, Rusiya isə faktiki olaraq müqavilənin ilin sonuna qədər bağlanmasını istəmir və ya onun rus variantına uyğun bağlanmasını tələb edir. Deməli, Ermənistanda Rusiyaya qarşı yetişmiş düşmənçiliyin bir səbəbini də burada axtarmağa dəyər. Belə çıxır ki, Ermənistan Azərbaycanla sülh müqaviləsinin imzalanmasına razıdır, Qərb də İrəvanı buna məcbur edir, amma Rusiya buna qarşıdır. Maraqlı versiyadır, amma həqiqətə nə qədər yaxın olduğu müəmmalıdır.

Faktiki olaraq Ermənistanda Rusiyaya qarşı səpilmiş düşmənçilik toxumunun cücərmə fəslidir. Ermənilər tarixən onlara arxa durmuş, ilk dəfə bir dövlət - "Hayastan" qurmuş bir ölkəyə - Rusiyaya qarşı asilik edir, onu tasmasını tutanlarla birləşib əzməyə çalışırlar. Rusiya isə hələ də qoynunda bəslədiyi düşməninə qarşı mərhəmət göstərir. Amma sabah gec ola bilər, nə qədər ki, hər şey itirilməyib Rusiya Azərbaycana qarşı qərəzindən, erməniləri dəstəkləməkdən, ədalətin bərpa olunmasına mane olmaqdan çəkinməlidir. İlk olaraq "sülhməramlı" ordusunu bölgədən çıxarmaqdan başlasa, pis olmaz.

**V.VƏLİYEV**

# Dövlətçilik tarixinin, adət-ənənələrin, elm və mədəniyyətin təbliğinə hər zaman diqqət olub

***Azərbaycan xalqının çox qədim tarixi köklərinin olduğunu, bu xalqın zəngin irsə, milli adət-ənənələrə, elm və mədəniyyətə, eləcə də dövlətçilik tarixinə malik olduğunu bütün dünya xalqları yaxşı bilirlər. Bilirlər ki, xalqımız dünyanın ən qədim dövlətçilik tarixinə malik olan xalqlarındadır və Azərbaycan xalqının təqribən 5 min illik dövlətçilik tarixi var. Məhz ən qədim dövlətçilik tarixinə malik olan, eləcə də dövlətçilik ənənələrinə bağlı olan bu xalq həmin təməllər üzərində öz mədəniyyətinə, adət-ənənələrinə sahib çıxıb və sevindirici haldır ki, mənəvi dəyərlərini bu günə qədər də qoruyub saxlayıb.***

Xalqımızın çox qədim dövlətçilik tarixinə malik olduğunu sübut edən abidələr, eləcə də kitabələr və salnamələr az deyil. Azərbaycan xalqının hələ eramızdan əvvəlki minilliklərdə dövlətçilik tarixini sübut edən abidələr günümüzə qədər də gəlib çatıb. Bilirik ki, Azərbaycan ərazisində mağaraların sayı olduqca çoxdur. Böyük və Kiçik Qafqaz dağlarının ətəklərində, eləcə də Talış dağlarında, Naxçıvanda, Zəngilanda, Kəlbəcərdə, Gədəbəydə, Göygöldə, Şamaxıda belə mağaralara rast gəlinir və buna misal olaraq Fizuli rayonu ərazisindində aşkar edilən Azıx mağarası artıq dünyaca məşhurdur. Ölkəmizin ərazisində yerləşən mağaralarda aparılmış tədqiqatlar göstərir ki, burada yaşamış ibtidai insanlar 1,5 milyon il öncə, yaşayışlarını mağaralardakı şəraitə uyğunlaşdırmaq məcburiyyətində qalsalar da sonralar şüurun inkişafı və bəzi əmək və inşaat alətlərinin yaranması ilə əlaqədar olaraq onlar yaşadıqları təbii mağaraları öz yaşayış tərzlərinə uyğunlaşdırmağa çalışmışlar. Mağaranın ortasında yandırılmış ocaq tüstüsünü xaric etmək üçün tavandan deşik, yeni baca açılması, yaxud müəyyən lazımi ləvazimatların saxlanması üçün mağaranın daxili divar səthində xüsusi oyuqların açılması buna əyani sübutdur. İbtidai insanların təbii mağaralar üzərində apardıqları belə yenidənqurma işləri sonrakı dövrlərdə süni mağaraların yaranması ilə nəticələnib və təbii mağaralar kimi bir neçə küyüldən ibarət olan süni mağaralar da yer səthindən xeyli hündür məsafədə dik qayalar və dağ döşündə düzəldilib. Azərbaycan ərazisində süni mağaralara Böyük Qafqaz dağlarının ətəklərində, Kiçik Qafqaz dağlarında, Qubadlı rayonunda Bərgüşad, Həkəri çayları vadilərində, Şirvan regionunda Mərəzə, Dərəkənd yaxınlığında, eləcə də cənub əyalətlərində qədim Manna və Midiya dövlətlərinə mənsub olan ərazilərdə də təsadüf edilir. Deməli, eramızdan əvvəl birinci minilliyə təsadüf edən Manna dövlətinin ərazisindəki bu mağaralar sübut edir ki, bir necə minilliklər əvvəl xalqımızın dövlətçilik ənələri olub.

Tarixə ekskursiya etdiyimiz zaman dövlətçilik ənənələrimizin daha qədim dövrə təsadüf etdiyinin şahidi olarıq. Şahidi olarıq ki, artıq eramızdan əvvəl üçüncü minillikdə Azərbaycanın cənubunda ilk tayfa birlikləri və erkən dövlət qurumları meydana gəlmişdi. Eramızdan əvvəl üçüncü və ikinci minilliklərdə Urmiya gölünün qərbində və cənub-qərbində kuti, cənubunda lullubi, turukki tayfaları məskunlaşmışdılar, hansıki qədim Azərbaycan tayfaları haqqında ilk yazılı məlumatlar şumer dastanlarında və mixi yazılarında qeyd olunur. Buna əsasən də bəlli olur ki, eramızdan əvvəl üçüncü minilliyin ikinci yarısında Azərbaycanın cənubunda Lullubi tayfa ittifaqı yaranmışdı ki, bu da düz beş min il bundan əvvələ təsadüf edir. Eramızdan əvvəl 2170-2150-ci illərdə, hökmdar Anubaninin dövründə Lullubilərin Akkad dövlətinə qarşı mübarizə apardıqları, Lullubi dövlət qurumunun daha da güclənməsi, onun uğurları eyni zamanda, "Anubaninin daş sütünü" ("Qələbə abidəsi") üzərindəki mixi yazılarda da həkk olunub və bütün bunlar xalqımızın dövlətçilik tarixinin beş min ilə yaxın olduğunu təsdiqləyir. Belə tarixi faklar və dövrümüzə qədər gəlib çıxan kitabələr yetərincədir, hansıki bunun daha dərindən araşdırılması, eləcə də təbliğ edilməsi olduqca vacibdir. Ələlxüsus, bizə məxsus olan maddi, mədəni nə varsa hamısını özününkülləşdirmək, oğurlamaq istəyən, bu məqsədlə də xalqımızın tarixi kökləri, dövlətçilik ənənələri barədə yalan məlumatlar yaymağa çalışan ermənilərin "canfəşanlıq" etdiyi bir zamanda bu məsələ öz aktuallığını qoruyur və daha vacib hesab olunur.

Özünün qədim dövlətçilik tarixi olan Azərbaycan xalqı zəngin milli, əxlaqi və mənəvi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr verən milli adət-ənənələri, yüksək mənəviyyatı ilə diqqəti cəlb edir. Min illər boyu formalaşan və Azərbaycan xalqının yüksək mənəvi dəyərlərə malik olduğunu göstərən təkraredilməz adət və ənənələr millətimizin keçmişi ilə bu günü və gələcəyi arasında sarsılmaz bir mənəvi körpü rolunu oynayır. "Milli adət və ənənələr hər bir xalqın milli mədəniyyətinin zənginliyindən, qədim tarixi kökə malik olmasından xəbər verir", deyə bildirən Ümummilli Lider Heydər Əliyev adət və ənənələrin hər bir millətin həyatında oynadığı əvəzsiz rolunu yüksək qiymətləndirirdi. Onu da qeyd edək ki, adət və ənənələrin milli mənəvi dəyərlər sistemində oynadığı əvəzsiz rollardan biri də hər bir ənənənin müəyyən əxlaqi məna daşıması ilə bağlıdır, belə ki, adət və ənənələrimiz hər bir insan nəslinin yaratdığı əxlaqi dəyərləri qoruyub, yeni nəslə çatdırmaq vasitəsi kimi çıxış edir.

Xüsusilə diqqətə çatdırmaq yerinə düşərdi ki, adət-ənənələrimiz və onların formalaşdırdığı milli dəyərlər sistemi ilə güclü dövlətçilik quruculuğu arasında sıx vəhdət var. Belə ki, hər bir dövlətin gücü, ilk növbədə, adət və ənənələrin cəmiyyəti əxlaqi, milli vətənpərvərlik baxımından düzgün istiqamətə yönəltməsindən, onları saf təməllər üzərində tərbiyə etməsindən asılıdır. Bu baxımdan bütün dövrlərdə adət və ənənələr hər bir dövlətin qüdrətli və uzunömürlü olmasında on minlərlə əsgərin görə bilmədiyi əvəzsiz bir iş görür. Bir sözlə, adət və ənənələr insan münasibətlərinin tənzimləyicisi və istiqamətvericisi funksiyasını yerinə yetirərək, öz liderі ətrafında möhkəm birləşən güclü və qüdrətli dövlətin meydana çıxmasında önəmli rol oynayır. Düz 30 ilə yaxın müddət ərzindən düşmən tapdağı altında qalan 20 faiz torpaqlarımızın işğaldan azad edilməsində biz bunun bir daha əyani şahidi olduq. Tək biz yox, bütün dünya şahidi oldu ki, cəmiyyəti əxlaqi, milli vətənpərvərlik baxımından düzgün istiqamətə yönəldən adət və ənənələrimiz dövlətimizin gücünə güc qatdı, dövlətimizin qüdrətini daha da artırdı və həqiqətən də on minlərlə əsgərin gördüyü işdən də artıq iş gördü. Xalqımızın "dəmir yumruq" şəklində birləşərək düşmənin başını ən qısa zamanda əzməsi bunun əyani sübutudur.

"Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar və bu, bizim adət və ənənələrimizdir", deyə bəyan edən Ulu Öndər Heydər Əliyev adət və ənənələrimizi, mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirdiyini göstərir. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə qayğı ilə yanaşan görkəmli dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyev yaxşı başa düşürdü ki, milli dövlətçilik milli-mənəvi dəyərlər sistemi ilə sıx daxili vəhdətdədir. O, bu çərçivədə də gənc nəsli saf əxlaqi ruhda tərbiyələndirməyin dövlətimiz qarşısında ən zəruri vəzifələrdən biri olduğunu dönə-dönə vurğulayırdı. Çünki adət və ənənələr yetişməkdə olan gənc nəsildə güclü təsir buraxaraq onların vətən, millət, xalq sevgisi ruhunda tərbiyə olunmasında əsl həyat məktəbi rolunu oynayır. Bu adət və ənənələr mənəvi baxımdan nə qədər zəngin olsa, həmin gənclər də o qədər cəmiyyət üçün xeyirli şəxs kimi yetişər və dövlətin daha da güclü olmasına öz töhfəsini verər.

Hazırda milli adət-ənənələrimizə göstərilən diqqət də təsadüfi deyil. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, cənab Prezident İlham Əliyev xalqımızın milli adət-ənənələrinə xüsusi diqqət ayırır. Ölkə rəhbərinin, cənab Prezident İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində dövlətçilik ənənələrini, milli ənənələri nəzərə alaraq ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatın bütün sahələrində ciddi dəyişikliklər edilib və edilməkdədir,



hansıki bunun sayəsində davamlı şəkildə uğurlar qazanılır. Azərbaycan bu gün beynəlxalq miqyasda ən sürətlə inkişaf edən, iqtisadi sahədə də ən böyük nailiyyətlər əldə edən ölkə olaraq dünyada söz sahibinə çevrilib, etibarlı tərəfdaş kimi də özünü təsdiq edib. Dünyaya inteqrasiya olunduğumuz zamanda Azərbaycan milli-mənəvi dəyərləri, sənəti, mədəniyyəti, incəsənəti ilə heyrət doğura bilib. Bu dəyərlərin əsasında xalqın tarixi köklərini, tarixini, mədəniyyətini, qəhrəmanlığını, məişətini, sosial həyatını əks etdirən faktorlar dayanır. Belə bir tarixi irsin daşıyıcısı olan xalqın qürurla səhifələdiyi vərəqlər zənginləşir, Azərbaycanın dünyaya töhfələr verən abidəsi olduğunu sübut edir. Təbii ki, bu abidələr fərdlər tərəfindən milli düşüncənin məhsulu olaraq ortaya qoyulur. Cənab Prezident İlham Əliyev tərəfindən ardıcıl olaraq imzalanan sərəncamlarda bu ifadə öz təsdiqini bir daha tapır. Ölkə rəhbərinin, Prezidentin sərəncamı ilə bir sıra mədəniyyət ocaqlarının tikilib istifadəyə verilməsi, eləcə də bərpası, məsələn, Bakıda Beynəlxalq Muğam Mərkəzinin tikilməsi, Xalça Muzeyinin inşası, regionlarda yeni muzey və musiqi məktəblərinin yaradılması qədim və zəngin mədəni irsə olan diqqətin bariz nümunəsidir.

***İnam Hacıyev***

# SON 19 İL - Davamlı inkişafın təminatçısı Prezident İlham Əliyev!




## AZƏRBAYCAN PREZİDENTİ: "Azərbaycanda uzun illərdir mövcud olan sabitlik iqtisadi inkişafımızın əsas amillərindəndir"

*"Azərbaycanda uzun illərdir sabitlik mövcuddur və bu, iqtisadi inkişafımızın əsas amillərindəndir". Bu fikri Prezident İlham Əliyev noyabrın 25-də ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransında çıxışında deyib.Dövlət başçısı bildirib ki, güclü iqtisadiyyat, siyasi-iqtisadi sabitlik, hökumətimizin yürütdüyü proqnozlaşdırılan siyasət - bütün bu amillər və çoxsaylı dövlətlərlə sıx münasibətlərin qurulması bugunkü reallığın yaradılmasına kömək edib.Dövlət başçısı onu da bildirib ki, məhz güclü iqtisadiyyat nəticəsində işğaldan azad olunmuş Qarabağımız yenidən qurulur.*

"Ağalı kəndi Qarabağın yenidən qurulmasının nümunəvi modeli olacaq",- deyən Prezident İlham Əliyev bildirib ki, artıq Ağalı kəndinin sakinləri doğma kəndlərində məskunlaşıblar: "Bu, yalnız Qarabağın işğalı dövründə əziyyət çəkmiş keçmiş köçkünlər qarşısında bizim mənəvi borcumuzun təzahürü deyil. Biz Qarabağın və Zəngəzurun bərpasını bütün ölkənin yenidən qurulmasının modeli hesab edirik".

Bəli, bu gün son 19 ildə Azərbaycan Prezidenti İlham Əliyevin "güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah" konsepsiyası Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik. Bəli...

### İQTİSADİYYATI GÜCLÜ OLAN DÖVLƏT HƏR ŞEYƏ QADİRDİR

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur. Bəli, həqiqətən də bu danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik"."Əsl siyasət konkret, real iş görməkdir" - deyən Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində hazırda, ilk növbədə, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm addımlar atılmaqdadır. "Bizim məqsədimiz iqtisadi cəhətdən güclü, siyasi cəhətdən müstəqil dövlət qurmaqdır" - ölkə başçısının bu sözləri aparılan siyasətin ana xəttidir. Belə ki, son illər ölkə iqtisadiyyatında müşahidə olunan dinamik inkişaf, heç şübhəsiz, Azərbaycan Prezidenti İlham Əliyevin son 19 illik prezidentlik fəaliyyəti dövründə ölkə iqtisadiyyatının şaxələndirilməsi hesabına qeyri-neft sahələrinin inkişaf etdirilməsi istiqamətində reallaşdırılan tədbirlərin məntiqi nəticəsidir. Dövlətimizin başçısı tərəfindən "Sənaye ili" elan olunmuş 2014-cü ildə Azərbaycanda reallaşdırılan məqsədyönlü tədbirlər, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən işlər qeyri-neft sektorunda, xüsusən də, sənayenin qeyri-neft sahələrində böyük bir canlanmaya səbəb olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, son 2 ildə ölkədə qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan qeyri-neft sənayesində yüzlərlə sənaye müəssisəsi, o cümlədən texniki avadanlıqlar, iri qabaritli transformatorlar, metal konstruksiyalar, beton məmulatları zavodları, tekstil fabriki və digər müəssisələr açılmış, bir sıra digər mühüm sənaye obyektlərinin tikintisi deyilənlərin göstəricisidir.

### DAVAMLI İQTİSADİ İNKİŞAFIN TƏMİNATÇISI - QALİB LİDER İLHAM ƏLİYEV

Ölkəmizdə davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi Azərbaycan hökumətinin qarşıya qoyduğu və çox böyük müvəffəqiyyətlə həyata keçirdiyi mühüm prioritetlərdən biridir. Yeri gəlmişkən, dövlətimizin başçısı İlham Əliyev son 19 illik prezidentlik fəaliyyəti illərində əhalinin sosial şəraitinin yaxşılaşdırılması, iş yerlərinin yaradılması və yoxsulluğun azaldılmasını daim diqqətdə saxlayıb. Məsələn, ölkə rəhbəri uzun bir dövrü əhatə edən "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında hələ 2008-ci il 15 sentyabr tarixli sərəncam imzalayıb. Bu Dövlət Proqramı həyata keçirilməsi nəzərdə tutulan sosial-iqtisadi məsələlərin həllini və Azərbaycanın davamlı inkişafını şərtləndirib.

Prezident İlham Əliyev son 19 ildə sözügedən Dövlət Proqramından başqa respublikamızın regionlarının davamlı sosial-iqtisadi inkişafı ilə bağlı da bir neçə proqram imzalayıb. Davamlı inkişaf strategiyasının mühüm tərkib hissəsi olaraq, bölgələrin tərəqqisində önəmli rol oynayan regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramından əvvəl bu istiqamətdə qəbul edilən (2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə) digər proqramların icrası dövründə ÜDM 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb. Bu müddətdə reallaşdırılan məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə açılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enib.

Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda sosial-iqtisadi sahədə davamlı inkişafla bağlı əldə edilən uğurlar son 19 ildə Azərbaycanın bütün sahələrdə öz nümunəsini ortaya qoyaraq özünü dünyaya güclü, müstəqil və müasir inkişaf edən ölkə kimi tanıdıb.

### 2022-Cİ İL MÜSTƏQİLLİK TARİXİNİN ƏN BÖYÜK ZƏFƏR BÜDCƏSİ

Bəli, bütün bunlar əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Məhz 44 günlük Vətən müharibəsinin qalib dövlətinin 2022-ci il 30 il əvvəl müstəqilliyini bərpa etmiş bir ölkənin müstəqillik tarixinin ən böyük zəfəl büdcəsidir. Əgər Vətən müharibəsi Azərbaycanın hərbi gücünün təntənəsi oldusa, gələn ilin büdcəsi isə ölkəmizin iqtisadi qüdrətini təcəssüm etdirən reallıqdır. Çünki Azərbaycan son 19 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. 2003-cü ildən bu yana iqtisadiyyatın üç dəfədən çox artması, ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılması bunu təsdiq edən ən vacib faktlardır. Tarixi qələbəmizin təminatçısı olan Azərbaycan Silahlı Qüvvələrinin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi, dövlətin milli təhlükəsizliyinin gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə hərbi hissələrin yerləşdirilməsi, bərpa edilmiş dövlət sərhədinin etibarlı qorunması üzrə tədbirlərin maliyyələşdirilməsi növbəti ilin büdcəsinin prioritet xərclərinin vacib istiqamətləri kimi qalacaq. Belə ki, 2022-ci il dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik istiqamətləri üzrə 4 milyard 489 milyon 892 min 429 manat vəsait ayrıldı.

2022-ci ildə müdafiə qüvvələri istiqamətləri üzrə 2 milyard 153 milyon 165 min 727 manat, milli təhlükəsizlik istiqamətləri üzrə 285 milyon 501 min 146 manat, sərhəd xidməti istiqamətləri üzrə 441 milyon 585 min 091 manat, müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar istiqamətləri üzrə 4 milyon 119 min 118 manat, müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər istiqamətləri üzrə 1 milyard 605 milyon 521 min 347 manat, xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə 1 milyard 600 milyon 442 min 500 manat vəsaitin ayrılıb.




*Əsrə bərabər 19 ilin zirvəsində təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı.*

## QÜDRƏTLİ ORDU, GÜCLÜ İQTİSADİYYAT, BEYNƏLXALQ ARENADA ÖNƏMLİ MÖVQE, MÜSTƏQİL XARİCİ SİYASƏT VƏ QALİB ÖLKƏ

Bəli, qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Və bu gün biz həqiqətən tarixi günlər yaşadıq və yaşayırıq. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyanın əsasını təşkil edən üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu. Bu gün hər bir vətəndaş, bütün dünya hərbçilərimizin peşəkarlığını, ordumuzun gücünü gördü. Onu da gördü ki, Güclü Azərbaycan Ordusu və məğrur və rəşadətli əsgərlərimiz Ali Baş Komandanın əmrlərini yerinə yetirərək 44 gündə təcavüzkar Ermənistanın 30 il işğal altında saxladıqları torpaqlapımızdan iti qovan kimi qovdular: "İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!". Budur, Azərbaycan xalqının, əsgərinin əzmi, rəhbərinə, xalqına, torpağına, Vətəninə sadiqliyi. Bu qələbənin əsası isə Ali Baş Komandan, Prezident İlham Əliyevin yeni inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən çoxşaxəli islahatlar, kompleks tədbirlər sayəsində əldə edilən uğurlardır. Bu, hər il dövlət büdcəsində müdafiə xərclərinə böyük vəsaitin ayrılması, ölkənin müdafiə sənayesi yaradıldı, ordumuz ən müasir silahlarla təchiz edilməsinin reallığıdır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Düşmənlə üz-üzə hərb meydanında Zəfər qazanmağımızın səbəblərindən bir də məhz bu amildir. 2003-cü ildən bu yana iqtisadiyyatın üç dəfədən çox artması, ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılması bunu təsdiq edən ən vacib faktlardır.

30 il əvvəl müstəqilliyini bərpa etmiş bir ölkənin müstəqillik tarixinin ən böyük büdcəsidir. Əgər Vətən müharibəsi Azərbaycanın hərbi gücünün təntənəsi oldusa, gələn ilin büdcəsi isə ölkənin iqtisadi qüdrətini təcəssüm etdirən reallıqdır. Çünki Azərbaycan son 19 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. 2003-cü ildən bu yana iqtisadiyyatın üç dəfədən çox artması, ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılması bunu təsdiq edən ən vacib faktlardır. Tarixi qələbəmizin təminatçısı olan Azərbaycan Silahlı Qüvvələrinin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi, dövlətin milli təhlükəsizliyinin gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə hərbi hissələrin yerləşdirilməsi, bərpa edilmiş dövlət sərhədinin etibarlı qorunması üzrə tədbirlərin maliyyələşdirilməsi növbəti ilin büdcəsinin prioritet xərclərinin vacib istiqamətləri kimi qalacaq. Belə ki, bu ilin dövlət büdcəsi xərclərinin 15 faizi, yəni 4 milyard 490 milyon manat həcmində vəsait bu məqsədlər üçün nəzərdə tutulub.

Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Bütün bunlar isə verilən vədlərin uğurla reallaşması nəticəsində baş tutub. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bu günün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. Bir sözlə, bu gün Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda da görüb. Ölkəmizin hərbi qüdrətinin nümayişi olan belə paradlarda xalqımız və beynəlxalq ictimaiyyət Azərbaycanın mükəmməl hərbi gücə malik olduğuna şahidlik edib. Təsdiq olunub ki, Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir. Çünki güclü ordu isə güclü dövlət deməkdir.Və beləliklə, bu qələbənin nümayişi 10 dekabr 2020-ci ildə keçirilən Zəfər Paradında bir daha dünyaya göstərildi. Bu Paradla Qarabağ Azərbaycandır! nidasının təntənəsi, "Dağlıq Qarabağın" statusunun olmayacağının Azadlıq meydanında nümayişi, işğalçı Ermənistanın yeni erməni dövlətinin yaradılması planlarının üstündən birdəfəlik xətt çəkməsinin nümayişi idi.

## ZƏFƏRİN YARATDIĞI İQTİSADİ YÜKSƏLİŞ

Əsrə bərabər 19 ilin zirvəsində təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı. Tarixə nəzər salsaq görərik ki, ötən 19 ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülüb. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Məhz bu ordu öz Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşını başladı və dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın fəthi tariximizə Zəfər Günü kimi yazıldı. İki gün sonra isə işğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi. Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir keyfiyyətini - sərkərdəlik məharətini üzə çıxardı. O, əməliyyatlara şəxsən nəzarət edir, döyüşən orduya tapşırıqları birbaşa özü verirdi. Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. Müharibə dövründə dövlətimizin başçısı İlham Əliyev xarici KİV-ə 30-dan çox müsahibə verdi ki, bu da münaqişə ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı.

Əlbəttə, Vətən müharibəsində qazanılmış Qələbə həm də son 30 ildə həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. İlk növbədə, güclü və qüdrətli dövlət yaratmaq lazım gəlirdi və Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Ötən on səkkiz ilə nəzər salsaq görərik ki, dövlətimizin başçısı xalqa verdiyi bütün vədləri yerinə yetirib. Bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. İqtisadi və sosial sahədə qazanılmış bir neçə göstəricini diqqətə çatdırmaq kifayətdir. Ötən 18 ildə ölkə iqtisadiyyatı 3,2 dəfə artıb, yoxsulluq 49 faizdən təxminən 5 faizə enib, 2 milyondan çox yeni iş yerləri yaradılıb, əməkhaqları, pensiyalar dəfələrlə artırılıb. Siyasi, iqtisadi imkanlarının genişləndirilməsi Azərbaycanın beynəlxalq arenadakı mövqelərini möhkəmləndirib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Bir sözlə, bu gün Azərbaycan dünyanı həm də azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işlərilə heyrətləndirir. Bu ərazilərdə yeni yollar çəkilir, elektrik stansiyaları tikilir, Prezident İlham Əliyev azad edilmiş rayonlara çoxsaylı səfərləri zamanı strateji infrastruktur obyektlərinin açılışını edir, yenilərinin təməlini qoyur. Füzuli aeroportu artıq təyyarələri qəbul etməyə hazırdır, Şuşaya gedən Zəfər yolunun tikintisi tamamlanmaq üzrədir. Ağdam və Cəbrayıl şəhərlərinin bərpasının təməli qoyulub. Prezidentimiz deyir ki, Qarabağ tezliklə cənnətə çevriləcək, keçmiş məcburi köçkünlər maksimum qısa müddətdə doğma yurdlarına qayıdacaqlar. Bir sözlə, bu gün Azərbaycan öz gücü, iqtisadi qüdrəti ilə 44 günlük Vətən müharibəsində nəyə qadir olduğunu göstərdi. Qələbədən sonra isə Qalib Liderimiz Prezident İlham Əliyevin bölgələrə səfəri .

## BÖLGƏLƏRƏ HƏR SƏFƏR YENİ UĞURLARIN TƏMƏLİ VƏ MÜJDƏSİDİR

Bəli, Azərbaycanın yüksəlişinin əsas göstəricilərindən biri olan regionların inkişafı hər zaman dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Regionların inkişafı üçün zəruri infrastrukturun yaradılması, investorların regionlara cəlb olunması, yeni iş yerlərinin açılması, əhalinin həyat tərzinin yaxşılaşdırılması ölkəmizdə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olduğunu təsdiq edən ən mühüm amillərdir. Məhz bu amilləri əsas tutan Azərbaycan Prezidenti İlham Əliyevin ölkənin rayon və bölgələrinə etdiyi müntəzəm səfərlər regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasının effektivliyinin təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb edir. Və bu səfərlər zamanı verilən dövlət tapşırıqlarının icrası yerində yoxlanılır, baş tutan açılışlar və təməlqoyma mərasimləri isə görülmüş işlərin həcminin göstəricisidir. Elə bu günlərdə - dekabrın 2-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şəki və Oğuz rayonlarına səfər çərçivəsində bir çox obyektlərin açılışında və təməlqoyma mərasimlərində iştirak edib. Səfər çərçivəsində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidənqurmadan sonra açılışında iştirak edib, Şəkinin Orta Zəyzid kəndində "Green Factory" Məhdud Məsuliyyətli Cəmiyyətinin quru meyvə istehsalı müəssisəsində yaradılan şəraitlə, Şəki Şəhər İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə tanış olublar.

Bir sözlə, bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyevin son 19 illik prezidentlik fəaliyyəti dövründə regionların inkişafı və quruculuq işləri ilə bağlı qarşıya qoyulan vəzifələr sürətlə icra olunur, bütün məqsədlər həyata vəsiqə alır. İstifadəyə verilən və təməli qoyulan yeni müəssisələr və infrastrukturlar isə həm regionun yüksəlişinə xidmət edəcək, həm də bütövlükdə respublikamızın inkişaf göstəricilərinə töhfə verəcək.Bax, budur müasir Azərbaycan həqiqətləri. Bütün bunlar əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Və yuxarıda deyilənlərdən hasil olan nəticə ondan ibarətdir ki, iqtisadi müstəqilliyin təmin edilməsi Azərbaycanın tarixi nailiyyətidir. Bu gün heç bir xarici dövlət, heç bir beynəlxalq təşkilat ölkəmizlə diktat dili ilə danışmır və danışa da bilməz. Dövlət başçımızın söylədiyi kimi: "Əsl siyasət konkret, real iş görməkdir".

Məhz, son illər ərzində görülən işlər, açılan istehsal müəssisələri bir daha onu göstərir ki, Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatını düzgün əsaslar üzərində qurmaqla dayanıqlı inkişafı təmin edir, ən əsası dünyaya yeni iqtisadi modeli nümayiş etdirir.

**RƏFİQƏ KAMALQIZI**

# ƏSRƏ BƏRABƏR 19 İL - Xalqımızın ən böyük arzularını gerçəkləşdirən Qalib Lider!

*Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Bəli, bu Qalib Lider, hər bir azərbaycanlının Prezidenti İlham Əliyev cənablarıdır. Bəli, bu gün hər bir azərbaycanlının Prezidenti, görkəmli dövlət xadimi, yeni əsrin yeni lideri olan İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 19 il ötür.*



*SEYFƏDDİN ƏLİYEV, YAP Masallı rayon təşkilatının sədri*

## MƏN ONA ÖZÜM QƏDƏR İNANIRAM VƏ GƏLƏCƏYİNƏ BÖYÜK ÜMİDLƏR BƏSLƏYİRƏM

Ulu öndər Heydər Əliyevin 19 il əvvəl - 2003-cü ildə ölkəmizdə keçirilmiş prezident seçkiləri ərəfəsində oktyabrın 1-də Azərbaycan xalqına müraciətində deyirdi: ”Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Ümummilli liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə onun layiqli varisi İlham Əliyevi dəstəkləyərək səsvermə hüququna malik olan vətəndaşların 71.5%-i Yeni Azərbaycan Partiyasının namizədi, partiya Sədrinin birinci müavini, Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev cənablarına səs verməklə bir daha xalqın düzgün seçim etdiyini təsdiqlədi. Azad, ədalətli və şəffaf şəkildə keçirilən seçkilərdə İlham Əliyev ümumi seçicilərin 2 milyon 438 min 787 nəfərin səsini qazanaraq, yəni 76.84% faizdən çox səs toplayaraq Azərbaycan Respublikasının Prezidenti seçildi. Bəli, bu günün zirvəsindən dönüb ötən 19 ilə nəzər saldıqda Azərbaycanın nə qədər möhtəşəm inkişaf mərhələsi yaşadığının canlı şahidi oluruq. Həmin dövrü Azərbaycanın yeni və parlaq inkişaf mərhələsi, Prezident İlham Əliyevin isə onun memarı adlandırılması üçün bütün əsasların olduğunu indi hamı birmənalı şəkildə etiraf edir. Çünki həyat sübuta yetirdi ki, Azərbaycan xalqı 2003-cü ildə tariximizin yeni mərhələsinin ən mühüm qərarını qəbul edərək, ölkəyə Heydər Əliyev miqyasında siyasətçidən sonra yeni lider və prezident seçərkən özünə xas müdrikliyinə əsaslanan yeganə düzgün seçimini edə bilmişdir. Bu, yeni əsrin Qalib Lideri Prezident İlham Əliyev cənablarıdır. Çünki Prezident İlham Əliyev

## SÖZÜ İMZASI QƏDƏR QÜVVƏTLİ OLAN LİDERDİR

Bir sözlə, Azərbaycan xalqı 2003-cü ildə tariximizin yeni mərhələsinin ən mühüm qərarını qəbul edərək, ölkəyə Heydər Əliyev miqyasında siyasətçidən sonra yeni lider və prezident seçərkən özünə xas müdrikliyinə əsaslanan yeganə düzgün seçimini edə bilmişdir. Çünki Azərbaycan Prezidenti İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Prezident İlham Əliyev hər zaman çıxışlarında bildirib ki, ”Mənim sözüm imzam qədər qüvvətlidir”.

Bəli, sözü imzası qədər dəyərli və qüvvətli olan Prezident İlham Əliyev son 19 ildə xalqımızın ən böyük arzularını gerçəkləşdirən - Qalib Liderdir. Ümummilli lider Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan artıq 19 ildir ki, etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempi ilə uğurla irəliləyir. Zəmanəmizin dahisindən ”Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” qiymətini alan, bu inamı layiqincə doğruldan və ata vəsiyyətini yerinə yetirən, son 19 ildə Azərbaycanımızın tarixinə ancaq uğurlar, naliyyətlər, qələbələr kimi yazılmaqla yanaşı, xalqımızın arzularının da gerçəkləşdirən Qalib Liderimiz, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarıdır. Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. Onun rəhbərliyi ilə Azərbaycan özünün bu illər ərzində milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu Vətən müharibəsində möhtəşəm Qələbə qazanaraq ərazilərimizi işğaldan azad etdi və öz adını son 200 ildə ilk dəfə olaraq torpaqlarımızı yağı tapdağından azad edən Böyük Dövlət xadimi, Qüdrətli Sərkərdə kimi Azərbaycan tarixinə həkk etdi. Mahir diplomat və müdrik dövlət xadimi Prezident İlham Əliyev hakimiyyətinin bütün illərində dövlət və xalq maraqlarını ən ali məqsəd kimi qarşıya qoydu. Hər zaman xalqının və dövlətinin milli maraqlarını müdafiə edən qətiyyətli Ali Baş Komandanımız milli mənafeyimizi beynəlxalq aləmdə böyük qətiyyətlə qorudu, Qarabağ həqiqətlərini ən nüfuzlu təşkilatlarda, tribunalarda müxtəlif dillərdə bütün dünyaya çatdırmaqla xalqın dili, səsi oldu. ”Dəmir yumruğu” ilə düşmənin başını əzməyi bacardı. Bu uzaqgörən, düşünülmüş siyasətin nəticəsi olaraq, xalq və iqtidar birliyi daha sarsılmaz şəkil aldı. Bu birlik nəticəsində illərdi düşmən tapdağı altında qalan əzəli Vətən torpaqları Ermənistanın işğalçı silahlı qüvvələrindən azad edildi. Düşməni hərbi bacarığımızla yanaşı, həm də siyasi, iqtisadi gücümüzlə də iflic etməyi bacardıq. Hərbi əməliyyatlar zamanı darmadağın edilən düşmən Qalib Liderimiz Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri qəbul edərək, məğlubiyyətini etiraf etdi. Bu, cəmi 44 gün davam edən və Ali Baş Komandanımızın ”Dəmir Yumruq” siyasəti ilə Vətən müharibəsinin böyük zəfəri ilə başa çatması Prezident İlham Əliyevin qələbəsi, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun təntənəsi idi. Bu qələbə xalqımızın, ordumuzun, milli birliyimizin, haqqın və ədalətin zəfəri idi. Bu tarixi Zəfər Qələbəsi ilə Azərbaycan Prezidenti İlham Əliyev həyatını Azərbaycana həsr edən, ”Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur” - deyən Ulu Öndərin arzusunu reallaşdırıldığı qələbə idi. Şuşanın azad edilməsi münasibətilə xalqa müraciətində Prezident İlham Əliyev bəyan etmişdi: ”Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır!”.

Bəli, ölkə Prezidenti İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu sözlər hər birimizdə böyük sevinc və qürur hisləri yaradır. Bu böyük qələbə ilə Ali Baş Komandanımız, Prezident İlham Əliyev Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. Bu gün tək Qarabağ yox, işğal altında olan bütün torpaqlarımız geri qaytarıldı. Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Bu, tarixin böyük qələbəsi idi. Bu qələbənin isə bir şəriksiz müəllifi var - Ali Baş Komandanımız, Azərbaycan Prezidenti İlham Əliyev. Və noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin birgə bəyanatı bir daha sübut etdi ki, indi şərtləri Azərbaycan verəcək. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Bu, Prezident İlham Əliyevin son 19 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasının Qələbəsidir.

Ən əsas məqam isə, tarixi qələbəmizdən dərhal sonra qüdrətli ordumuzun müzəffər Ali Baş Komandanı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva işğaldan azad edilmiş rayonlara səfər etdi. Bütün təhlükələrə, çətinliklərə baxmayaraq müqəddəs torpaq sevgisi, xalq məhəbbəti onların yol - yoldaşı oldu. ”Ən böyük xoşbəxtlik, ən böyük qiymət odur ki, xalq səni dəstəkləsin” - deyən Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanı işğaldan azad edilmiş Qarabağ torpaqlarında xalq böyük coşqu, sonsuz sevgi ilə qarşıladı. Daha sonra Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını sonsuz səmalara qaldıran dövlətimizin başçısı İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva xalqı üçün böyük qürur, fəxarət hissi yaşatmaqla bərabər, həmçinin də bu torpaqların əzəli və əbədi türk yurdu olmasını dünyaya bir daha çatdırmış oldu.Budur, dünyasəviyyəli, cəsarətli LİDER! Budur, xalqın Prezidenti olmaq!

Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının çıxışlarının birində deyib: ”Biz sübut etdik ki, biz böyük xalqıq. Biz sübut etdik ki, biz həmrəylik göstəririk, birlik göstəririk və bu birlik onsuz da cəmiyyətdə var idi. Ancaq bu zəfərdən sonra bu, daha da yüksək səviyyəyə qalxdı. Bu birlik bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq, məcburi köçkünlərimizi o yerlərə maksimum qısa müddət ərzində qaytaraq. Qarabağ bölgəsi, gözəl tarixi diyarımız sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl güşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcəkdir”.

Bəli, bu gün Azərbaycan xalqı da Qalib Liderimiz Prezident İlham Əliyevin son 19 il prezidentlik fəaliyyəti dövründə bir daha gördü ki, Azərbaycan Prezidenti daima xalqı ilə birlikdədir, onların yanındadır, bütün görülən işləri də xalqına aydın şəkildə çatdırır. Və bu günün reallıqları onu göstərir ki, qələbəmizdən ötən iki il ərzində həm siyasi, həm də iqtisadi baxımdan mühüm nailiyyətlərə imza atan - sözü imzası qədər qüvvətli olan lider Prezident İlham Əliyevin apardığı düzgün siyasət nəticəsində çox qısa zamanda Qarabağın yenidən dirçələcəyinə, 2023-cü ildə də işğaldan azad edilmiş rayonlarımıza, bütün Qarabağa yeni nəfəs veriləcək, bu torpaqlarda həyat qaynayacaq, dünya Azərbaycan xalqının quruculuq əzminin şahidi olacaq.

## “Bakcell”dən nəqliyyat üçün ağıllı həllər




***Bakcell şirkəti korporativ abunəçilərinə nəqliyyat vasitələri üçün ağıllı həllərdən istifadə etmək imkanı yaradır. "GPS+" adlanan bu yeni xidmət şirkət və təşkilatlara məxsus nəqliyyat vasitələrinin GPS izlənməsini təmin edir.***

Xidmətə qoşulan korporativ abunəçilər nəqliyyat üçün nəzərdə tutulan ağıllı həllərdən istifadə etməklə onun yerləşdiyi yer, sürəti, yanacaq sərfiyyatı, işləmə rejimi və səyahət etdiyi məsafəyə 24 saat ərzində nəzarət edə biləcəklər.

Monitorinq korporativ avtomobillərə quraşdırılan GPS avadanlığı vasitəsilə həyata keçirilir. Xidmət barədə ətraflı məlumat üçün https://business.bakcell.com/az/smart-solutions-for-transport səhifəsinə daxil olun. Bakcell şirkəti müxtəlif sahələrdə fəaliyyət göstərən korporativ abunəçilərini üstün mobil rabitə xidmətləri və texnoloji həllərlə təmin edir. 2022-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən ”Azərbaycanın ən sürətli mobil şəbəkəsi” kimi tanınıb.



# Uşaqlığımızın və xatirələrimizin fəsli

*Dünyada qlobal iqlim dəyişikliyi baş versə də, fəsillər illər öncəki donunu bir-birinə ərmağan etsələr də, lakin hər bir mövsümün adı çəkiləndə gözlər önündə onun özünəməxsusluqları canlanır. Bir anlığa həmin fəslə qonaq olur, gözəlliklər əhatəsində dünyada biz insanların səhvlikləri ucbatından yerləri dəyişən, zamanından, məkanından uzaqlaşdırılan fəsillərin gerçəyini yaşaya bilirsən.*

Artıq həyatımıza qış fəsli daxil oldu. Aylardan bəri birgə dünyamızı bölüşdüyümüz payızı yola saldıq, qışı qarşıladıq. Düzdür, bəlli səbəblərdən payız da özünəməxsusluqlarını olduğu kimi göstərə bilmədi. Amma yenə də payız idi, gəldi və getdi. Yayın yaşılını sarıya çevirib, istisini sazağına qatıb "mən payızam" deyə bildi.

Payızın son ayı qışdandır, deyirlər. İllər öncə bu deyimi payızın son ayında-dekabrda, hələ bir qədər də əvvəl-noyabrın ortalarından etibarən görə bilirdik. Hələ qışa bir ay qalmış onun ağ rəngini, təbiəti bəyaza bürüyən donunu görə bilirdik. Qış, necə deyərlər, payızdan qapını kəsirdi. İnsanların qayğıları başlayırdı, evlərdə sobalar qurulurdu.

Qış... Bu mövsüm həyatımıza gələr-gəlməz, gözlər önundə onun ağappaq rəngi canlanır. İndi qar az yağsa da, lakin qışın bir rəngi var, o da bəyazdır. Bu bəyazın fonunda da qışın təəssüratları formalaşır. Odur ki, qış təbiətin bəyaz rənginə çevrilib düşüncələrimizdə. Uşaqlığımızın fəsli olub qış. Bu gün isə xatirələrimizdir. Elə bu gün qışdan, bir az da xatirələrimizdən danışaq...

### Qış: təbiətin bəyaz rəngi...

Bütün fəsillər gözəldir, bəli. Hər birinin də öz rəngi var. Yazımız-yayımız yaşıl, allı-güllü, payızımız sarılı-qızılı rənglərlə könülləri oxşadığı kimi, qış da bəyazı ilə ruhları oxşayır.

Qışın gözəlliyi qardır, hər tərəfin qarla örtülməsi, təbiətin qış yuxusuna dalmasıdır. Müasir dünyamızda iqlim dəyişikliyi səbəbindən bu bəyaz rəngə çox halda həsrət qalsaq da, lakin rayonlarımızda, kəndlərimizdə bu gözəlliklərlə qarşılaşmaq olur hələ də.

Qar yağır, bütün təbiət bəyaz donunu geyinir. Ətrafda hər yer, hər şey ağappaq görüntülərlə ruha bir hüzur, sakitlik bəxş edir. Bu gözəlliklər fonunda isə bir təmizlik var. Sanki dünyanın bütün çirkablarının üstünü örtür qar pərdəsi. Heç olmasa "çox yox, bir-iki ay görsənməyin",- deyir. Və sanki onu diqtə edir ki, kaşki dünyamız bax beləcə, ağappaq olardı, tər-təmiz, pis əməllərdən kənar olardı. Kaşki dünyamızda həmişə qış olardı, bəmbəyaz qış...

Təbiətin necə də gözəl mənzərəsidir qış. Ağacların qar donunu görməyən olmayıb yəqin ki... Baxırsan ki, gecədən yağan qar ağacların əyninə gecədən-səhərədək elə bir don biçib ki, necə deyərlər, yüz ölç, bir biç misalı. Səhər hava işıqlaşınca füsunkar bir mənzərə açılır gözlər önündə: adamlar soyuqdan sanki gizlənmişlər, evlərə çəkilmişlər, onlar öz yerlərini gəzdikləri, oraya-buraya gedib-gəldikləri yollarda, park-xiyabanlarda, həyətlərdə ağaclara vermişlər. Ağaclar sanki çönüb ağac adam olmuşlar, geyimli-keçimli, şallı-yaylıqlı, papaqlı, əlcəkli, köynəkli, ətəkli adamlar. Lakin yerimirlər, dayanıblar. Qışın soyuğunun sükutuna qərq olub, xəyala dalıb bu dünyanın gərdişini fikirləşirlər.

Səhər üzü gündoğandan çox çətinliklə boylanan günəş ətrafa zərrin şüalarını saçdıqca onun qarla yaratdığı harmoniya qarşısında heyran qalır insan. Bu zaman yer də, göy də bir-birinə sanki bir parlaqlıq ərmağan edir. Hər yer parıldayır, ulduzcuqlar ətrafda rəqs edir. "Bəyaz" adlı sinfoniya səsələnir uzaqlarda, bu huzura huzur qatan, sükutu yaran bir sinfoniya..

Axşama doğru bu bəyazlar gündüzkü pambıq yumşaqlığını itirməyə başlayır, günəşin qüruba enməsi ilə qarın da yumşaqlığını alıb ona gecənin sərtliyini bəxş edir. Artıq səhəri gün dünən yağan qarın yumşaqlığından əsər-əlamət qalmır. Onun "xışıltı" nəğməsi başlayır. Səhər-səhər pəncərələr önündən işinin-gücünün ardınca yollanan insanların addımı ilə səslənən bu nəğmə içəridəkiləri yuxudan oyadır...

Budur, qarşında yeni bir qış tablosu var... Hər tərəf bəmbəyaz buzdur. Evlərin daş örtüyündən sallanan buz parçaları, dünən harada necə vardısa, eləcə də donub qalan qar bu gün başqa bir gözəllik mənzərəsinin "müəllifidir"... Hər yer bəmbəyaz, hər tərəf ağappaq... Tək bir rənglə min bir naxış, doyumsuz mənzərələr. İlahinin yaratdığı gözəlliklərdən biri... Budur, təbiətin bəyaz rəngi...

### Qışın qarı, yazın barı

Ata-babalarımızın tarixin sınaqlarından, zamanın süzgəcindən süzülüb gələn deyimlərindən biri: qışın qarı, yazın barı... Bəli, qışda qar nə qədər çox yağarsa, yazda su və məhsul bir o qədər bol olar. Buna görə də hələ bineyi-qədimdən ata-babalarımız qışda qarın bol olmasını arzulayıblar. Qar çox yağanda, "hə, bu yaz bolluq olacaq",- deyiblər.

Təəssüf olsun ki, yenə vurğulayıram , dünyada qlobal iqlim dəyişikliyi ilə əlaqədar olaraq insanlar yağışa-qara həsrət qalıblar. Bu da yaz və yay aylarında quraqlıqla nəticələnir. Qar həm bol su, həm də bitki örtüyünün mühafizəçisidir. Yazlıq-payızlıq əkin sahələrini əgər qışın şaxta-soyuğundan qar örtüyü qoruyub, onu yaza barlı-bəhərli əkin sahəsi kimi təhvil verirsə, bu qar örtüyü həmçinin yazdayayda su təminatıdır.

Qədim əkinçilik mədəniyyətinə sahib olan xalqımızın bu mədəniyyəti formalaşdıra bilməsi səbəbindən də bu cür deyimlər yaranıb. Və bu deyimlər hər qış gələdə insanların qar yağması, həm də bol yağması arzularının yaranmasına səbəb olub. Son illər qışda lazımi qədər qar yağmaması təbii ki, kənd təsərrüfatı işlərində də problemlər yaradıb.

Ardı Səh. 12











# Uşaqlığımızın və xatirələrimizin fəsli

Əvvəli-Səh-11



Kənd yerlərində zəhmət adamlarımız var ki, su çatışmazlığı üzündən əkin sahələri məhv olur, bütün zəhməti hədər gedir və ya nəzərdə tutduğu məhsulun heç dörddə bir hissəsini götürə bilmir.

Tək qar yox, yazda, payızda yağışın normal səviyyədə olmaması da təsərrüfat işlərində çətinliklər yaradır. Elə burada hələ bir neçə il öncəyədək yağışın yağması üçün insanların kəndlərdə "müsəlla" deyilən bir dini ayini də yerinə yetirirdiklərini xatırlayıram. Kənd camaatı bir yerə toplanır, düzənliklərə, dağlara doğru yollanır, dualar oxuyur, Allahdan yağış yağmasını diləyirdilər. Deyirdilər ki, müsəllaya çıxmışıq.



Qışın həyatımıza daxil olduğu bu günlərdə qoy arzumuz bol qar yağması olsun. Qar yağsın ki, bol suyumuz və məhsulumuz olsun, insanların zəhmət nəğməsini dinləyə bilək.

### Qış uşaqlığımız, xatirələrimizdir...

Nə qədər fərqlidir o dövrlə bu dövr. Bütün hər şey kimi, qış da, onun əyləncələri də xatirələrə çevrilib. Qış uşaqların ən çox sevdiyi fəsil idi illər öncə. Çünki qış tək fəsil olaraq gəlmirdi, həm də onların oyun yoldaşı kimi həyatlarına qonaq olurdu.

Qar yağırdı, bununla əyləncələr başlanırdı. Xizəklər işə düşürdü, papaqlar, şərflər, əlcəklər, rezin uzunboğaz çəkmələr çıxırdı dolablardan. Elə ki, məktəbdən qayıtdıq, bir tikə çörək yeyər-yeməz düşürdük həyətə, xizəkləri götürüb sürməyə yollanırdıq. Nə yorulmaq, nə üşümək bilirdik. Evdən çağıran, "ay bala, evə gəlin",- deyən olmasaydı, qətiyyən gəlmək fikrimiz olmazdı. Gecəni də qarın bəyazında oynayardıq...

Qar topu oynayırdıq, bir-birimizi yerə yıxıb qarın içərisində yuyurduq. Əlçəklıərimiz, pal-paltarımız, çırılan çəkmələrin içərisində corablarımız tamamilə su olurdu. Bizi evə çağırırdılr. "Ey, niyə qoymursunuz oynayaq",- deyib könülsüz gedidik. Gedən kimi də pal-paltarımızı, əlcək, çəkmələrimizi sobanın kənarına düşürdük ki, dərs oxuyana, yemək yeyənədək qurusunlar ki, yenə qaçaq həyətə.

Yanaqlarımız bu bəyazların içərisində al-əlvan olurdu. Soyuğun təsiri ilə allanırdı üzümüz. O qədər ora-bura qaçırdıq ki, elə bil bədənimizdə soba yanırdı. "Ay bala, siz üşümürsünüz, bir evə gəlin" deyilində tərin içində onlara cavab verirdik ki, istidən ölürük, üşümək nədir.

Yıxılırdıq, qalxırdıq... Uşaqlarla zarafatımız bəzən dalaşmaqla nticələnirdi. Ürəyimiz dözmürdü, tez də barışırdıq. Qar yeyirdik, əlimiz çatan yerlərdən buzları qoparıb sorurduq. Xəstələnirdik də. İstiliyimiz qalxırdı, lakin sağalan kimi vaxtı fövtə vermək yox idi. Həmin andaca əyin-başımızı geyinib qaçırdıq bəyazlara doğru.

İndi o bəyazlar bəyaz da xatirələrə çevrilib. Həmin xatirələr o qədər tərtəmiz, ülvidir ki, xatırladıqca insana mənəvi zövq verir. Çünki heç bir qüvvə, təsir o bəyazlığa xələl gətirə bilməmişdi. Bu səbəbdən də qış bizim ən gözəl uşaqlığımız, unudulmaz xatirələrimizdir.

### Qış həyatımıza xoş gəlib

Fəsillərdən biri, bir-birindən gözəllərdən biri həyatımıza xoş gəlib. Payızla yolayrıcında xudahafizləşib, onu yola salıb, özü xoş gəlib. Gəlib ki, bir fəsil kimi vəzifəsini icra etsin. Qarını gətirsin, soyuğunu gətirsin, yazdan-yaydan, payızdan qalan xoşagəlməz nə varsa, dondursun, inkişafdan saxlasın. Dünyamızı təmizləsin, təbiətin çarx kimi dayanmaz fəaliyyətinə bir ara versin, "bir dincəl",- desin...

Gəlib ki, bəlkə ruhumuzu öz bəyazı ilə bir qədər oxşaya bilə. Dünyanın bu qədər qalmaqalları, müharibələri, dalaşları, savaşları fonunda ağ rəngi ilə "ey insanlar, sülhə gəlin",- deyə. Gəlib ki, insanlara "dünya malından əl çəkin, gözünüz tox, ruhunuz gözəl olsun",- deyə. Bu dünyadan aparacağınız mənim rəngimdə kəfəndən başqa heç nə olmayacaq, deyə.

Gəlib ki, insanların min bir əməlini əngəlləyə bilsə, bəlkə qarını yağdıra bilə. Bəlkə yazda bol suyumuz, tarlalarımızın bol məhsulu ola bilə. İnsanlara üz tutduqları bazarlarda min adda, min dadda nemət ola bilə.

Gəlib ki, ili başa vura, qarşımızada yeni bir təqvim ili aça. İnsanlara yeni arzular, diləklər bəxş edə. Onları yeni yolların yeni yolçuları edə. Bu yollarla irəliyə doğru onlara uğurlar diləyə.

Gəlib ki, Böyük Çilləni gətirə həyatımıza. 40 gün saya-saya bitəcəyini gözlədə, 20 günlük Kiçik Çilləyə qədəmimizi qoydura. Onu da saya-saya başa vurub Boz aya, oradan bahara-Novruza qovuşdura bizi.

Bir də ondan ötrü gəlib ki, ağappaq qarını səpələyə ətrafa. Ruhumuza, könlümüzə zövq verə. Gəlib ki, uşaqlığımızı, xatirələrimizi qaytara bizə, özünü olduğu kimi, necə varsa, necə olmalıdırsa, eləcə də xatırlada...

***Mətanət Məmmədova***

# "Hraparak" yenidən Artsun Ovannisyanı hədəfə aldı



## "Bu adam utanc hissinin necə olmasından xəbərsizdir"






***Ermənistanın "Hraparak" nəşri 44 günlük İkinci Qarabağ müharibəsində ölkənin müdafiə nazirliyinin mətbuat katibi Artsrun Ovannisyanı hədəfə alan yazı ilə çıxış edib. SİA xəbər verir ki, müharibə zamanı ictimaiyyətə cəbhə ilə bağlı yalan informasiyalar verən bu şəxs hələ də özünü heç nə olmamış kimi aparır. SİTAT: "44 günlük müharibədən sonra Ermənistanın müdafiə nazirliyinin sabiq mətbuat katibi Artsrun Ovannisyanın adı sanki təhqir kimi sanılırdı. Ancaq bu adam utanc hissinin necə olmasından xəbərsizdir".***

### "Artsrun özünü elə aparır ki, guya heç nə baş verməyib"

Qeyd edək ki, Artsrun Ovannisyana qarşı soaial şəbəkələrdə çoxsaylı ittihamlar səsləndirlir. Misal üçün, Mais Vanoyan adlı sosial şəbəkə istifadəçisinin yazdığına görə, "Artsrun özünü elə aparır ki, guya heç nə baş verməyib" və Ovannisyan ona qarşı sürülən ittihama belə cavab verib. SİTAT: "Mais Vanoyan, əgər siz özünüzü 44 gün ərzində aldadılmış hesab edirsinizsə, bu o deməkdir ki, sizin özünüz bunu belə istəyirdiniz. Aldadılmış olmanız, ya da özünüzü aldadılmış kimi göstərməyiniz sizə sərf edirdi. Aldanmayardınız, mən dəfələrlə bu məsələyə müraciət etmişəm, ona görə də indi burada nə isə yazmağa ehtiyac yoxdur".

### "Axı belə bir bədxassəli şiş birdəfəlik olaraq bizim həyatımızdan nə zaman itəcək?"

"Hraparak"ın jurnalisti onu da sual edib ki, erməni ictimai rəyi bu yalançını necə qəbul edir? "Lakin indi sual başqa məsələdədir: bu cür məxluq orduda xidmət etməyə necə imkan tapır? Axı belə bir bədxassəli şiş birdəfəlik olaraq bizim həyatımızdan nə zaman itəcək? Artsrun bizim gözümüzdən uzaq dünyada yazıq həyatı ilə nə zaman yaşamağa başlayacaq?".

Xatırladaq ki, Artsun Ovannisyan hazırda da Ermənistanın müdafiə nazirliyinə məxsus idarələrdən birində kiçik vəzifələrdən birini tutmaqda davam edir və bu şəxs 44 günlük müharibə vaxtı, əslində, darmadağın edilən erməni ordusunun Azərbaycan ordusu üzərində "şanlı qələbələri" barədə çoxsaylı yalan informasiyalar tirajlamaqla məşğul idi.

***Rövşən RƏSULOV***



# Son günlərdə bəzi dərmanlar niyə tapılmır?

*Bir çox Avropa ölkələri indi təkcə enerji problemləri ilə yox, bir müddətdir ki, ən zəruri dərmanların tapılmaması ilə üz-üzə qalıb. Mövcud böhranlarla yanaşı, Qərb dünyasını dərman qıtlığı da əhatə edib. Fransada 85 adda dərmanın, o cümlədən parasetamol və antibiotiklərin, həmçinin antiseptik sabunların çatışmazlığı yaşanır.*





Fransanın özündə istehsal olunan və ən məşhur dərmanlardan biri olan Efferalqanın çatışmazlığı səbəbindən Milli Dərman Agentliyi apteklərə əldə qalan preparatların satışını məhdudlaşdırmağa çağırıb. Dərman çatışmazlığının müxtəlif səbəbləri var. Məsələn, bəzi molekullar artıq istehsal olunmur, çünki onların istehsalı çox baha başa gəldiyindən dövlət istehsalçılara qiymətləri ödəməyi öhdələrinə götürmürlər.

Belə ki, hələ avqust ayında Britaniyada Müstəqil Apteklər Assosiasiyasının rəhbəri doktor Leyla Hanbek tədbir görülməsə sənayedəki böhranın qarşısını almaq mümkün olmayacağını xəbərdar etmiş və artıq problemlərin qeyd olunduğu dərmanların adını çəkmişdi. Bunlara antidepresanlar, ağrıkəsicilər, parasetamol, insulin iantibiotiklər və s. aiddir.

Bununla belə, "Teva" əczaçılıq şirkətinin rəhbəri Burckhardt etiraf edir ki, böhran tədarük zəncirlərinə də təsir edib: "Əvvəllər hər şey təhlükəsiz olduğu yerdə idi, indi böyük xərclərə düzəlişlər etmək lazımdır". O, Avropa qiymət sistemindən şikayətlənib: "Xammalın maya dəyəri artıb və yerli qanunlara görə qiyməti tənzimləmək mümkün deyil. Ona görə də istehsalçılar üçün məhsul istehsal etmək sərfəli olmur".

Planlaşdırma modelinin fəaliyyətinin dayandırılması bürokratik maneələr həyatınızı qurtaran dərmanların istehsalına maneə törədən ən başlıca amillərdəndir. Bəs Azərbaycanda dərman çatışmazlığının qarşısı necə alınmalıdır?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Son günlər ölkəmizdə də dərman çatışmazlığının əsas səbəbləri istehlak və istehsaldakı hazırkı durum, logistika xərclərinin artması və ən əsası daşıyıcılar tərəfindən düzgün siyasətin qurulmamasıdır. Ən başlıcası isə hazırda qiymət artımını tənzimləyəcək bir mexanizmin olmamasıdır.

Azərbaycanda bir çox sahələr üzrə işlər aparılıb irəliləyişlər olsa da, dərman sənayesində hələ də hansısa inkişaf müşahidə olunmur. İllərdir ki, həkimlərin təyin etdikləri və apteklərdə bizə təqdim olunan dərmanlar yalnız xarici ölkələrin istehsal etdikləridir. Amma ölkəmizdə dərmanların qiymətinin yüksək olması Azərbaycanda da bu sahədə yerli istehsalın vacibliyini ortaya çıxarır.

Sosial Sahə üzrə ekspert İlqar Hüseynli: "Ümumiyyətlə dərman preparatlarının ölkəmizdə çatışmazlığının ən böyük səbəbi məhz ölkəmizə dərman təchizatının 95 faizə yaxın idxaldan asılı olmasıdır. Təəssüflər olsun ki, Azərbaycan bu günə qədər əczaçılıq sahəsini inkişaf etdirə bilməyib və iri dərman istehsal edən zavodları yoxdur. Buna görə də prinsip etibarilə xarici ölkələrdən asılı vəziyyətdəyik və bunun çox riskli bir durum olduğunu qeyd etməliyik. Daha çox partnyorlarımız Türkiyə, Fransa, Rusiya, Ukraynadır. Sözsüz ki, dünyada xammal azlığının baş verməsi, qlobal problemlər də öz təsirini göstərir. O cümlədən Rusiya ilə Ukrayna arasında baş verən müharibədən sonra əczaçılıq zavodlarının fəaliyyətində ciddi problemlərinin yaranması ölkəmizə idxal imkanlarını azaldıb. Xeyli dərmanların çatışmazlığına gətirib çıxaran faktorlardan biri kimi bunu qeyd etmək olar.

Hətta Türkiyənin özünün daxili bazarının tələbatını ödənilməsində problemlər müşahidə etdik. Bu məsələ ilə bağlı Türkiyənin bir çox şəhərlərində araşdırmalar apardım və şahidi oldum ki, bəlli dərman preparatlarının xaricə ixracında limitlər tətbiq olunub. Bu ölkəmizə də öz təsirini göstərir. Həm də dərman preparatlarının qeydiyyatı kifayət qədər problemli məsələdir. Bu proses aylarla zaman aparır və hər 5 ildən bir qeydiyyatın yenilənməsi, yenidən qeydiyyata alınması arasındakı interval dərman bazarında çatışmazlığına gətirib çıxarır. Müxtəlif adda olan dərman preparatlarının tərkibindəki molekullar eynidirsə əvəzedicilərdən istifadə etmək olar. Düşünürəm ki, əczaçılıq zavodlarının tikilməsini və bu sənayenin inkişafını sürtləndirməliyik. Dərman preparatların qeydiyyatı ilə bağlı problemlər aradan qaldırılmalıdır. Ən azından eyni molekullu dərman preparatlarının qeydiyyatı beş il yox, 10 il həyata keçirilməlidir və prosedurlar sadələşdirməlidir ki, sahibkarlar asan yolla ölkəyə dərman idxal edə bilsinlər".

**Havar Şəfiyeva**










# Fransadan qondarma film...

## *"Ermənistan: müqəddəs torpaq" adlı qonradma filmdə Qarabağdakı dini məbədlərimiz erməniləşdirilib*

**Fransanın erməni əsilli rejissoru Nare Tadevosyanın çəkdiyi "Ermənistan: müqəddəs torpaq" adlı filminin Parisdə, Marseldə və ölkənin digər şəhərlərində yayımlanması bir daha sübut etdi ki, yalnız bu ölkənin siyasi hakimiyyəti deyil, bütövlükdə ortaq marağı Azərbaycana qarşı kirli siyasət yürütməkdən ibarətdir.**

Diqqətçəkən məqam isə budur ki, 2019-cu ildə, yəni torpaqlarımızın işğal altında qalan vaxtlarında çəkilən filmdə rejissor müasir kinoindustriyanın bütün xüsusi effektlərindən istifadə etməklə Qarabağın füsunkar təbiətini göstərib. Amma bununla yanaşı, guya "tarixlər boyu bu torpaqlarda yaşayan və yaradan" (əslində dağıdan və məhv edən-R.R.) ermənilərin "öz müqəddəs məkanlarına" necə qiymət verdiklərini nümayiş etdirməyə cəhd göstərib. Niyə məhz "öz" dırnaq arasında verilir? Ona görə ki, həmin müqəddəs məkanların onlara heç bir aiddiyatı yoxdur. Bu məkanlar Azərbaycan xalqının qədim irsinin sübutudur və onlar Alban məbədləridirlər!

Beləliklə filmdə birmənalı olaraq Alban kilsələri göstərilib ki, bu kilsələr çoxsaylı saxtakarlıqlar vasitəsi ilə erməni kinorejissorun həmsoydaşları tərəfindən erməniləşdirilib. Faktlar, arxivlər də sübut edirlər ki, kilsələr, məbədlər əsla ermənilərə məxsus deyil və bu tikililərin əsrlər boyu dayanmasına baxmayaraq rejissorun qrafist və fotoşoperlərinin bacarıqlı əlləri ilə fransız tamaşaçılarının gözlərində "gözəl kilsələri ilə bol olan qədim və xeyirxah erməni vilayəti" canlandırılır. Halbuki, bütün bu kilsələr və məbədlər 30 il dəhşətli və yarımsökülü vəziyyətlərdə qalmaqda davam edirdi!

Erməni terrorçuları 44 günlük İkinci Qarabağ müharibəsi dövründə həmin məbədləri hərbi hissələrinin dayaq məntəqələri kimi istifadə edirdilər. Məhz bu xüsusda Nare Tadevosyana daha bir sual verməyin yeridir - görəsən, filmdə nəyə görə müsəlmanlara aid müqəddəs məkanlar, məscidlər çəkilməyib, xatırlanmayıb?

Çox yəqin ki, elə Narenin özü üçün də sirr deyil ki, Qarabağdakı məscidlər "xeyirxah və Allahsevər ermənilər" tərəfindən donuzxanalar, mal tövlələri kimi istifadə olunub. Hər halda internet şəbəkələrində bunu sübut edən minlərlə video və foto dəlillər var. Fəqət, həmin fakt və dəlilləri Parisin özündə, Vaşinqtonda, Kanadada və s. ölkələrdə bilənlər çox azdırlar. Onların çoxu məlumatsızdırlar ki, Ermənistanın Azərbaycan torpaqlarını işğala məruz qoyduqları zamanlara qədər. Daha dəqiq desək, 1988-ci ildə 403 tarixi-dini abidələr mövcud olub: məscidlər, məbədlər, pirlər. Son 30 ildə ermənilər tərəfindən bütün mədəni, dini və s. irsimiz darmadağın olunub. Ümumilikdə isə 67 məsciddən 63-ü tamamilə dağıdılıb və yer üzündən silinib, 4-ü isə qismən məhvə məruz qalıb. Görəsən Nare Tadevosyan bu reallıqları çəkməkdən utanıb, yoxsa təmsil etdiyi millətinin murdarlıqlarını gizlətməyə çalışıb..?

**Rövşən RƏSULOV**

***Bildiyimiz kimi, Yeni İlə son 7 gün qalıb və artıq bir çox evlərdə ayın əvvəlindən şam ağacları hazırlanıb. Bəziləri bu ağacı lap əvvəldən hazırlasa da, bir qrup da son günlər necə deyərlər, əl-ayağa düşür. Bir də şam ağacı ayın əvvəlindən qurulan ailələr daha çox uşaqlı olanlardır. Əgər evdə uşaq varsa, valideyn onun bir gülüşü üçün əlindən gələn hər şeyi etməyə hazır olur.***



Ötən gün araşdırmamızda şam ağaclarının qiymətlərini qeyd etdik. İndi isə bir şam ağacı bizə neçəyə başa gəlir onu araşdıracağıq. Yəni, bir şam ağacının qiyməti və onu bəzəmək birlikdə bir ailənin büdcəsinə necə uyğun ola bilər? Hansı qənaətcil yollarla uyğun qiymətli şam ağacı ərsəyə gətirə bilərik?

# Şam ağacını bəzəmək minimum neçəyə başa gəlir?











SİA mövzu ilə bağlı araşdırma aparıb.İlk olaraq qeyd edək ki, əvvəlki illərlə müqayisədə indi həddindən artıq qarışıq bəzədilmiş şam ağacları dəbdə deyil. Belə ki, günümüzdə daha minimalist şam ağacları üstünlük təşkil edir. Bu da büdcəsi az olan ailələr üçün şad xəbər sayıla bilər. Yəni şam ağacına çoxlu oyuncaq almaq dərdindən qurtulursunuz.

Şam ağacı üçün zərli bəzək: 1.99 AZN. Bu böyük supermarketlərin birində olan qiymətdir. Sədərəkdə eyni məhsulu 1 AZN, yaxud 50 qəpiyə də əldə etmək olar. Bu məhsuldan 10-15 ədəd alaraq 15 AZN-ə sadə, amma gözəl şam ağacı bəzəyi əldə edə bilərsiniz.

Şam ağacı üçün 8 ədəd top bəzək: 5.19 AZN. Həmçinin, bu bəzəkdən eyni çalarlar aralığında 16 ədəd olaraq da orta boylu şam ağacınıza estetik görünüş qata bilərsiniz.

Şam ağacı üçün bəzək çeşidi 14 ədəd: 5.79 AZN.

Şam ağacı üçün 64 ədədli bəzək çeşidi: 23.99 AZN.

Qeyd edək ki, bu sadaladıqlarımız şam ağacının olmazsa olmazları sırasındadır.

İndi isə kiçək əlavə bəzək məhsullarına:

Ağacın kənarına qoymaq üçün "Santa şaxta baba" - 37 smlik 21.99 AZN.

Şam ağacı üçün ulduz: 5.79 AZN

Zər çeşidləri: 3.79 AZN. Qeyd edək ki, bunların 1-2 AZN olan növləri də mövcuddur. Qalınlıq və keyfiyyətə görə qiymət də dəyişir.

Şam ağacı üçün işıq: 5.89 AZN. Qeyd edək ki, bu ən münasib qiymətə olan işıqlardandır. Bundan əlavə 7, 10, 15 manatlıq işıqlar da var.

Bütün bu qiymətlərdən o qənaətə gəlmək olur ki, minimum bəzəklə bir ortaboy şam ağacını bəzəmək 25 AZN-ə başa gəlir".

***Ayşən Vəli***

ARAŞDIRMA

# "Etiraz aksiyası kifayət qədər ciddi bir prosesdir"



"Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qanunsuz istismarına etiraz əlaməti olaraq Azərbaycanın qeyri-hökumət təşkilatlarını təmsil edən ekoloqların, vətəndaş cəmiyyəti fəallarının, könüllülərin iştirakı ilə Laçın-Xankəndi yolunda keçirilən etiraz aksiyası kifayət qədər ciddi bir prosesdir. Məlum olduğu kimi, sülhməramlıların rəhbərliyi ilk olaraq müvafiq qurumlarımıza həmin ərazilərdə monitorinq aparmaqla bağlı razılıq versə də, daha sonra bu prosesə mane oldular". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov qeyd edib.



Politoloq bildirib ki, nəticə etibarı ilə Rusiya sülhməramlıları və separatçıların birgə təxribatı nəticəsində həmin monitorinqin aparılmasının qarşısı alındı. Buna cavab verilməli idi və verilən cavab da kifayət qədər uğurludur. Nəticənin nə olmasından asılı olmayaraq bu aksiya verilmiş mesajlarla artıq öz məqsədinə nail olub.

Birincisi, aksiya iştirakçıları Ermənistanın Rusiya sülhməramlılarının dəstəyi ilə ərazilərimizdə ekoloji terror törətdiklərini bütün dünyaya çatdıra bildi. İkincisi, hər kəs gördü ki, Rusiya sülhməramlı kontingenti öz üzərinə düşən vəzifəni yerinə yetirmir. Əslində missiyası sülh olan kontingent açıq şəkildə anti-Azərbaycan mövqeyi nümayiş etdirir və tək işləri separatçı rejimi qorumaqdan ibarətdir. Ekoloqlarımızın, rəsmi qurumlarımızın monitorinq aparmasına şərait yaradılmaması, dinc Azərbaycan insanının, QHT təmsilçilərinin qarşısına ağır silahlarla silahlanmış hərbçiləri düzmək və bütün çağırışlara, tələblərə baxmayaraq Rusiya sülhməramlılarının rəhbəri Volkovun aksiya iştirakçıları ilə görüşməməsi onu sübut edir ki, Rusiya prosesdə konkret tərəf olaraq çıxış edir. Eyni zamanda separatçıların rahat şəkildə qanunlarımızı pozması, ərazilərimizdəki təbii sərvətləri talan edə bilməsi üçün əlindən gələni edir. Rusiya sülhməramlıların komandanı Volkovun hələ də aksiya iştirkçıları ilə görüşməməsi, daha dəqiq desək rəsmi Moskvadan hələ də bununla bağlı göstərişin gəlməməsi onu deməyə əsas verir ki, Ermənistan kimi Rusiya tərəfi də həmin ərazilərdə monitorinqin aparılmasından çəkinir. Çünki onlar Azərbaycan sərvətlərinin talan olunmasında birgə iştirak edirlər və bu faktların açılması "sülhməramlıların" ərazilərimizi qeyd-şərtsiz tərk etməsi üçün əsas ola bilər.

Ermənistanın və ya Rusiya sülhməramlılarının hansı fikirdə olmasından asılı olmayaraq, Laçın-Xankəndi yolundan hərbi məqsədlər, minaların və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edilməsinin qarşısı alınmalıdır. Bunun üçün də Rusiya hərbi kontingentinin nəzarətində olan Laçın yolunun nəzarətə götürülməsi şərtdir.

Düzdür biz üçtərəfli bəyanatla həmin yolda sərbəst gediş-gəlişin təmin edilməsi ilə bağlı öhdəlik götürmüşük. Amma sərhədimizdə gömrük məntəqəsi qurmayacağımızla bağlı bir öhdəlik götürməmişik. Bizin həmin gömrük məntəqəsini qurmaqla sərhədimizi nəzarətə götürməyə tam haqqımız çatır.

***Banuçiçək Hüseynli***

# "Cənubi Qafqazı təxribata sürükləyən qüvvələr var"

***"Rəsmi Bakı Kremlə "yumşaq diplomatiya" yolu ilə təsir göstərmək istəyir. Bakının Rusiya ilə münasibətlərdə gərginlik yarada biləcək məsələlərdən uzaq durmaq mövqeyi dövlətin təhlükəsizlik marağı baxımından anlaşılandır". Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.***



Onun sözlərinə görə, vətəndaş cəmiyyətini təmsil edənlərin ehtiyatsızlığından ata biləcəyi hansısa addım təxribata yol aça bilər: "Sülhməramlıların təxribata alternativ addımı arzuolunmaz hadisələrin yaşanmasına səbəb ola bilər. Sülhməramlılarla etirazçılar arasında təxribat yaratmaq istəyən qüvvələr - beşinci kolonun təmsilçiləri, Rusiyanı Ukrayna ilə gərginliyə aparan, Cənubi Qafqazda da təxribata sürükləyən qüvvələrdir. Hadisələrin ətrafında dərhal geosiyasi səciyyəli şou təşkil edərək bulanıq sularda balıq tutmağa çalışacaqlar. Beşinci kolonun, Qərbdəki bəlli dairələrin 2008-ci ildə qonşu Gürcüstanı belə bir avanturaya sürükləməsi hər kəsə bəllidir. Odur ki, təhlükəli oyundan uzaq olmalıyıq. Soydaşlarımız nəzərə almalıdır ki, Volkov kimi generallar icraçıdır. Həmin şəxslər yüksək instansiyalardan gələn sərəncamlara məsul şəxslərdir".

***Gülyana***

# Aleksey Naumov: “Ermənistanla Qərb vahid anti-Azərbaycan mövqedədirlər”

*Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Naumov "Moskva-Baku" portalına müsahibəsində Laçın dəhlizindəki vəziyyətin Cənubi Qafqazın gələcəyi uğrunda mübarizənin növbəti əksi olması və bu prosesin necə olacağı ilə bağlı deyib.*



**- Ermənistanın təşəbbüsü ilə Laçın dəhlizi ətrafında yaranmış vəziyyətlə bağlı BMT Təhlükəsizlik Şurasının iclası çağırıldı. Ümumiyyətlə, ölkələr vəziyyətin həllinə dəstək olaraq ümumi tezislərlə çıxış ediblər. Rusiya tərəflərlə konstruktiv iş gördüyünü, o cümlədən Azərbaycanın Qarabağda qeyri-qanuni mədənlərin monitorinqi ilə bağlı razılığa gəldiyini açıqlayıb. Amma bir sıra Qərb ölkələrinin səsləndirdiyi balanssız mövqelər də var idi...**

- Laçın dəhlizi ətrafında vəziyyət sadə deyil. Hər şeyin necə başladığını xatırlayırıq. Erməni separatçıları azərbaycanlı mütəxəssislərin yataqlara baxışını pozublar. Bundan başqa, Ermənistan tərəfinin dəhlizdən hərbi yüklərin, eləcə də minaların daha sonra Azərbaycan ərazilərində yerləşdirilməsi məqsədilə gizli daşınması üçün istifadə etdiyi məlumdur.

Nəticədə bütün bunlar Azərbaycan cəmiyyətinin və Azərbaycan hakimiyyətinin müvafiq reaksiyası ilə nəticələndi. Münaqişənin genezisi həm də Ermənistanın 2020-ci il noyabrın 10-da Rusiya və Azərbaycan liderləri ilə Nikol Paşinyanın imzaladığı üçtərəfli bəyanatı və ondan sonrakı üçtərəfli sənədləri ardıcıl olaraq yerinə yetirməməsindədir. İrəvan prosesi gecikdirmək üçün özünün ənənəvi oyununu oynayır. Nikol Paşinyanın rəhbərliyi altında erməni tərəfi bu məsələdə ustalaşıb və Cənubi Qafqazda sülh üçün ağrılı, lakin yeganə mümkün qərarların qəbulunu təxirə salmağa çalışır. Və cavab olaraq o, Qarabağda Azərbaycan ərazisində yaşayan etnik ermənilərlə bağlı vəziyyətin kəskinləşməsini alır. Təbii ki, bu məsələdə də həqiqətin, hər şeydə olduğu kimi, Azərbaycanın tərəfində olduğu göz qabağındadır.

Ermənistan Azərbaycanı, o cümlədən beynəlxalq platformalarda erməni əhalisini az qala "soyqırımı"nda, "humanitar böhran" yaratmaqda ittiham edərək geniş təbliğat işi aparmağa çalışır. Amma aydındır ki, bu, "düşmən"lə mübarizə üçün informasiya vasitəsindən başqa bir şey deyil ki, beynəlxalq ictimaiyyət Ermənistanın tərəfini tutsun və erməni əhalisinin yaşadığı Qarabağda heç bir böhran yaşanmasın. Erməni tərəfinin Laçın dəhlizi ətrafındakı vəziyyəti təsvir etmək üçün dönə-dönə işlətdiyi "soyqırım" sözü isə ən güclü ideoloji, semantik və emosional yükü daşıyır və vəziyyəti təsvir etmək üçün obyektiv deyil. Təbii ki, erməni tərəfi müasir medianın və müasir media mənzərəsinin necə işlədiyini yaxşı bilir. Və o, onlara qarşı ədalətsiz hesab etdikləri vəziyyətə diqqət çəkmək üçün ən çox ittiham olunan sözlərdən istifadə edəcək.

Ona görə də mümkün qədər emosiyalardan uzaqlaşmaq, yalnız faktlara baxmaq və vəziyyətin necə həll oluna biləcəyi barədə düşünmək lazımdır. Laçın dəhlizində vəziyyətin həlli üçün vasitə mümkün qədər sadədir, başa düşüləndir və üçtərəfli bəyanatda açıqlanıb.

Ermənistan öz təbliğat məqsədləri üçün son aylarda beynəlxalq təşkilatlardan özünün "müdafiə" aləti kimi istifadə etməyə son dərəcə fəal cəhdlər göstərir. Sentyabrda Ermənistan-Azərbaycan şərti sərhədində vəziyyətin gərginləşməsi ilə bağlı ərazidə vəziyyəti düzəltmək üçün ATƏT-in qondarma missiyası Ermənistana göndəriləndə də belə olub. Nəzərinizə çatdırım ki, Azərbaycan bu missiyanın işinin legitimliyini qəti şəkildə rədd etdikdən, Bakı ilə razılaşdırılmadığını, hətta ATƏT-in özü də missiyanın rəsmi göndərilmədiyini etiraf etdikdən sonra bu addımın təşkilatın hazırkı sədri missiya kimi Polşanın şəxsi təşəbbüsü olduğu deyilir.

*"Ermənistan hakimiyyətinin bu sonsuz təxribatları yalnız Rusiyanın öz mövqelərini Azərbaycana daha da yaxınlaşdırmasına səbəb olur"*


© Getty Images/AFP/K. Minasyan

BMT Təhlükəsizlik Şurasının iclası da bir daha göstərdi ki, ümumilikdə Birləşmiş Millətlər Təşkilatı hələ də siyasi alətdir və ayrı-ayrı ölkələrin milli və ya kollektiv maraqlarını əks etdirir. Biz çox yaxşı xatırlayırıq ki, onilliklər ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarını işğal olunmuş Azərbaycan ərazilərini tərk etməyə, faktiki olaraq, işğalı dayandırmağa çağıran açıq-aşkar ədalətli qətnamələri necə yerinə yetirilməyib. 30 ilə yaxındır ki, bu sənədlər icra olunmur. İndi də Ermənistan ənənəvi olaraq əsas beynəlxalq strukturda özünü qurban kimi göstərməyə və hər şeyi erməni əhalisinə qarşı soyqırımdan istifadə edirmiş kimi təqdim etməyə çalışır. Və gördüyümüz kimi, Qərb tərəfdaşları tərəfindən dəstəklənir. Qərbli həmkarlar həqiqətən də Azərbaycanı tənqid edir, onu mövcud, görünür, onların təxəyyüllərindəki "aqressiv hərəkətlərdən" əl çəkməyə çağırırlar. Bu, özləri üçün çox əlverişlidir, öz maraqlarına uyğun olaraq, Ermənistanın Cənubi Qafqazda normallaşma ilə bağlı üçtərəfli bəyanatın bəndlərini obyektiv şəkildə yerinə yetirməməsinə diqqət yetirmirlər.

Düşünürəm ki, Azərbaycanın Qərb ictimaiyyətində heç bir dostu olmadığını anlamaq vaxtıdır. Ümumiyyətlə, beynəlxalq arenada dostluq ideyası olduqca nisbidir. Biz Avropa liderlərinin indi necə cəhd etdiyini gördük.

**- Laçın vəziyyəti ilə bağlı Rusiyanın vasitəçi kimi mövqeyini necə görürsünüz?**

- İkinci Qarabağ müharibəsi zamanı Rusiya Azərbaycanla Ermənistan arasında əsas vasitəçi kimi çıxış edəndə, Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması üçün həqiqətən tarixi imkanlar açanda, əslində, 30 illik status-kvondan sonra. həll etmək üçün çox vacib, lakin son dərəcə çətin bir missiya götürdü. Sülhməramlı mövqeyi hamının narazı olduğu bir mövqedir. Yəni özlüyündə Rusiyanın belə bir rolu üzərinə götürməsi ona həm müsbət imic, həm də müəyyən problemlər yaradıb. Amma bu rol vacib və zəruridir. Rusiya olmazdı, başqası olardı. Və bu hamı üçün pis ssenari olardı.

Ermənistan Rusiyanın Qarabağdakı mövcudluğundan başqa şeylərlə yanaşı, sülhməramlılarla Azərbaycan arasında toqquşma cəhdləri üçün istifadə etməkdə davam edir. Azərbaycan ümumiyyətlə ədalət istəyir. Hər iki tərəf Rusiyanın Qarabağda sülhməramlı qüvvələrini yerləşdirməsi ilə razılaşıb. Və onların vəzifəsi tərəflər arasında yeni toqquşmaların qarşısını almaqdır.

Dünyanın ideal mənzərəsində, təbii ki, istərdim ki, Azərbaycan və Ermənistan bütün məsələləri özləri həll etsinlər, sülh müqaviləsi imzalasınlar. Amma reallıq daha mürəkkəbdir. Sülhməramlılar isə hər şeyə qadir deyillər. Ona görə də yeganə düzgün yol Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında üçtərəfli danışıqlardır. İşlədiyini sübut edən bir format. Gördüyümüz kimi, Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması ilə bağlı vəziyyət uzanır. Amma Azərbaycan göstərir ki, onu sonsuza qədər süründürmək mümkün olmayacaq və Ermənistan hakimiyyətinin sevimli oyunu nəticə verməyəcək, onlar üçün problemlər yaranacaq və İrəvanın özünün imza atdığı məsələlərə uyğun qərar vermək lazımdır.

**- Bəs rəsmi İrəvanın Rusiyaya qarşı davam edən "pisliklərini" necə şərh etmək olar. Bu həm Təhlükəsizlik Şurası katibinin Laçın dəhlizində yaranmış vəziyyətə görə Rusiyanın məsuliyyət daşıdığına istinad edir, həm də Ermənistan parlamenti sədri Qarabağ ermənilərinin müdafiəsinin mümkünsüzlüyünü deyir. İrəvan gələcəkdə Rusiya sülhməramlılarının beynəlxalq sülhməramlılarla əvəzlənməsinin zəruriliyi barədə düşünür. Amma sizin dediyiniz kimi, Qarabağ erməniləri üçün heç bir təhlükə yoxdur, bu, süni isteriyadır. Sülhməramlılar, bildiyiniz kimi, tarazlığı saxlamalı və toqquşmalardan qaçmalıdırlar ...**

- Bu, yenə də Ermənistanın günahı başqasına çevirmək taktikasıdır. Azərbaycana da, Rusiyaya da. Gördüyümüz kimi, Rusiya ehtiyatla, diplomatik yolla tarazlığı saxlamağa çalışır. Amma Ermənistan zaman-zaman çətin vəziyyətlərdən isterika və ittihamlar üçün zəmin yaratmağa çalışır. İddia edir ki, Rusiya özünü müttəfiq kimi aparmır, KTMT kömək etmək istəmir. Amma bu məntiqsizdir. Nə Rusiya, nə KTMT, nə də heç bir MDB ölkəsi vəziyyəti gərginləşdirməyə ehtiyac duymur. Sülhməramlı yanaşmanın mahiyyəti budur. Lakin İrəvanın buna ehtiyacı yoxdur. İrəvan müharibədən sonrakı üçtərəfli razılaşmalara yenidən baxmaq istəyir. Ermənistan üçtərəfli sazişin şərtlərinə əməl etməlidir, o zaman hər şey yaxşı olacaq, o zaman heç bir dəhlizlə bağlı problem olmayacaq. Amma Ermənistan bunu etmir, məqsədi hərəkətsizliyə görə öz xalqı qarşısında özünü doğrultmaqdır. Deyir ki, problem bizdə deyil, Rusiyadadır, Rusiyadan soruşun. Xarici arenada isə dəstək almaq, Azərbaycanın qərbli həmkarlarının dili ilə danlanmasını təmin etmək. Bizim gördüyümüz budur. Ermənistanla Qərbin vahid anti-azərbaycan mövqeyi. Bu, beynəlxalq aləmdə də kifayət qədər adi haldır.

Və burada, mən inanıram ki, yalnız Rusiya Qarabağda regionda mövcud olan ölkə kimi müsbət rol oynaya bilər. Düşünürəm ki, Ermənistan hakimiyyətinin bu sonsuz təxribatları yalnız Rusiyanın öz mövqelərini Azərbaycana daha da yaxınlaşdırmasına səbəb olur.

**- Bunun fonunda Avropa Şurası bu yaxınlarda Aİ-nin Ermənistanda Azərbaycanla sərhəddə monitorinq missiyasının başa çatması ilə bağlı bəyanat yayıb, lakin eyni zamanda deyilir ki, "Aİ-nin Cənubi Qafqazda keçid qrupu ilə qarşılıqlı fəaliyyətinin yeni mərhələsinin son məqsədi regionda davamlı sülhü təşviq etməkdir və bu Aİ-nin Ermənistanda mümkün uzunmüddətli missiyasına yol açacaq". Onlar qətiyyən ayrılmaq istəmirlər...**

- Geosiyasətdə vəziyyət elə inkişaf edir ki, hər bir ölkə bu və ya digər əks tərəf tutmalı olur. Əksəriyyət üçün neytral və balanslı mövqe saxlamaq çox çətindir. Aİ-nin uzunmüddətli missiyasının Ermənistana göndərilməsi respublikanın Avropa İttifaqının Cənubi Qafqazdakı forpostuna çevrilməsi demək olacaq. Avropa İttifaqının hansı mövqe tutduğunu biz sizinlə çox gözəl görmüşük. Avropa İttifaqının Cənubi Qafqaz üçün hazırladığı budur- anti-Azərbaycan, anti-Türkiyə, anti-Rusiya cəbhəsi, nizə başında Ermənistan olacaq. Çünki avropalı həmkarlarımız bizə deyir ki, Ermənistan demokratik və sağçıdır, Azərbaycan isə avtoritar və yanlışdır- Rusiya kimi. Avropa İttifaqı və anti-Avropa-İttifaq dünyasının bölünməsinin sərhəddi budur. Həm Rusiya, həm də Azərbaycana Avropa İttifaqında sülhün əleyhdarları rolu verilir. İndi qərar vermək lazım olanda Avropa Birliyi siyasətini belə qurur. Onların indi formalaşdırdıqları dövlətlərin uzunmüddətli mövqeləri son nəticədə yaxın onilliklər üçün regionda və dünyada qüvvələr balansını müəyyən edəcək.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti çərçivəsində hazırlanıb.*

# Yeni il hədiyyələri seçərkən necə diqqətli olmalıyıq?



*Yeni il hədiyyələri ən çox müxtəlif növ və adlarda qənnadı məmulatlardan və uşaq oyuncaqlardan ibarət olur. Uşaqlar üçün yüksək keyfiyyətli və təhlükəsiz hədiyyələr almaq üçün bir neçə qaydaya əməl etmək vacibdir. Hədiyyə seçərkən təkcə onun xarici görünüşünə baxmaqla kifayətlənməməlidir. Eyni zamanda, hədiyyənin qablaşdırmasına, eləcə də onun içərisində məhsulun vaxtına diqqət etmək lazımdır. Bir çox hallarda hədiyyənin içində qənnadı məmulatlara şokolad, biskvit peçenye, müxtəlif südlü şirniyyatlar olur.*

ARAŞDIRMA

### Hədiyyə seçərkən ən çox nəyə diqqət yetirmək lazımdır?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Ölkəmizdə istehlakçılara Azərbaycan dilində məlumat verilmədən, məhsulların keyfiyyətini və təhlükəsizliyini təsdiq edən sənədlər olmadan hədiyyə qablaşdırılmış məmulatlarının satışına icazə verilmir. Keyfiyyətsiz malların alınması riskləri yüksək olduğundan, dəyəri cəlbedici görünsə belə, bu malları almaq məsləhət görülmür.

Qida məhsullarının arasında olan oyuncaq haqqında belə məlumat yerləşdirilməlidir. Bayram ərəfələrində şikayətlər daha çox keyfiyyətsiz qida məhsulları və qapağı açılmayan şampan şüşələri ilə bağlı olur.

İstehsalçılar məhsulları cəlbedici qablaşdırmada təqdim etməyə çalışsalar da, çox zaman istehlakçılara bu məhsullar ya vaxtı keçmiş tarixlə çatdırılır, ya da o məhsullar lazımi şəraitdə saxlanılmır.

Mütəxəssislər hədiyyə almaq üçün pərakəndə satış şəbəkələrinə və ixtisaslaşmış mağazalara üz tutmağı məsləhət görürlər. Oyuncaqlara gəldikdə isə üç yaşdan kiçik uşaqlar üçün oyuncaqlar təbii xəz və dəridən ibarət olmamalıdır. Allergoloqlar bunun sonunu allergik əks təsirlərlə nəticələnəcəyini söyləyirlər. Həmçinin, oyuncaqlar şüşədən və digər qırıla bilən materiallardan olmamalıdır.

### NECƏ SAXLAMAQ lazımdır?

Şirin hədiyyələr 15-17 dərəcə temperaturda saxlanmalıdır, əks halda saxlama şəraitinin pozulması səbəbindən məhsuldan istifadə zəhərlənmələrə gətirib çıxara bilər.

Xonça MMC istehsal direktoru, Qida texnoloqu, şef - qənnadıçı Rəhman Ələkbərov:" Hədiyyələr qida məhsulu kimi alınarsa, mütləq şəkildə saxlanma müddətlərinə diqqət yetirilməlidir. Bundan başqa saxlanma şəraiti də önəmlidir.

Məsələn, Yeni il qutuları çox zamanlar qarışıq şirniyyatların xüsusi dizayn ilə qablaşdırılmış qutuda təqdim olunur ki, saxlanma müddətləri normal olsa da, belə saxlanma şəraiti pozula bilər.

Belə olan halda tövsiyə edərdim ki, o qutuları yox




məhsulu ayrıca doğru və düzgün yerdə sərgilənmiş məhsullara üstünlük verəsiniz. Fəsadlar məhsullara görə, insana görə dəyişir. Bu yüngül zəhərlənmə, mədə bağırsaq sisteminin pozulması və s. kimi fəsadlar törədə bilər. Sağlam məhsul seçin sağlam yaşayasınız".

**Havar Şəfiyeva**

# Oğuzda oğurluq edən keçmiş məhkum yaxalandı

Oğuz şəhəri ərazisində yerləşən kompüter təmiri məntəqəsindən oğurluq edilməsi ilə bağlı rayon polis şöbəsinə məlumat daxil olub. Gecə saatlarında obyektə daxil olan naməlum şəxs oradan 1500 manat pul oğurlayıb.

DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan SİA-ya verilən məlumata görə, polis əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbiri nəticəsində qeyd olunan cinayət əməlini törətməkdə şübhəli bilinən, əvvəllər də məhkum olunmuş Elçin Mahmudov saxlanılıb. O, ifadəsində əməlini etiraf edib və oğurladığı pulu xərclədiyini bildirib. Faktla bağlı Oğuz Rayon Polis Şöbəsində cinayət işi başlanılıb, istintaq aparılır.






# Ronaldo Ərəbistan klubuna keçir?

***Dünya çempionatındakı uğursuzluğu ilə gündəmə gələn məşhur portuqaliyalı futbol ulduzu Kriştiano Ronaldo dekabrın sonuna qədər Səudiyyə Ərəbistan klubu "Əl-Nəsr"lə müqavilə imzalaya bilər. Qol.az xəbər verir ki, bu barədə "The Times" nəşri məlumat yayıb.***

Mənbə bildirir ki, Ronaldo Avropada klub tapa bilmədiyi üçün azad agent olaraq Səudiyyə Ərəbistan klubuna keçməyə yaxındır. Ronaldoya Qətərdən də təklif gəlib. Lakin təklifin olunan məbləğ "Əl-Nəsr"in təklif etdiyindən daha aşağı olub. Xatırladaq ki, noyabrda Ronaldo "Mançester Yunayted"lə müqaviləsini ləğv edib və hazırda azad agent statusundadır.

# "Həddindən artıq qida qəbulu orqanizmdə qan dövranını yükləyir"

***"Orqanizm standart çalışma mexanizminə sahib olduğu üçün bayramda da hər günkü kimi standart qidalanmaya riayət olunmalıdır. Sadəcə olaraq bayramda bəzən çeşid çox olur ki, bu zaman da miqdara və hansı qidanın nə zaman qəbul ediləcəyinə diqqət edilməlidir". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova bildirib.***



Onun sözlərinə görə, ilk olaraq diqqət olunacaq məqamlardan biri odur ki, bayramlarda fərqli heyvan ətlərindən bişirilmiş yeməklərdən istifadə etmək düzgün deyil. Çünki bu birbaşa olaraq həzm prosesinin pozulmasına, maddələr mübadiləsinin yavaşlamasına səbəb olur. Buna görə də yaxşı olar ki, ana yemək olaraq bir çeşid yeməkdən və ət yeməklərində isə bir cür heyvan ətindən istifadə olunsun. Əks halda insan orqanizmində daxili orqanlar həddindən çox yüklənir və bayramdan sonra yorğunluq, halsızlıq və ağrılar baş qaldırır.

Bayramlarda mayonezlə hazırlanmış salatlardan da sıxlıqla istifadə olunur. Bu cür qidalar yaxşı olar ki, bir dəfəlik istehlaka yetərli olacaq qədər hazırlansın və bir neçə gün qalmasın. Çünki tərəvəzlər bişirildikdə, ət mayonezlə qarışdıqda uzun müddət qaldığı zaman öz qida dəyərini itirir. Eyni zamanda biri-birinə qarşı reaksiya getdiyi üçün insan orqanizminə də faydasından çox ziyan verir.

Həddindən artıq qida qəbulu orqanizmdə qan dövranını da yükləyir. Çünki insan yemək qəbul etdikdən sonra ürək daha çox qan göndərir ki, həzm prosesinə kömək olsun. Bu zaman isə daha çox yükləndiyi üçün ürək-damar xəstəliklərinin yaranmasına səbəb olur. Demək olar ki, həddindən artıq çox yemək qəbul etdikdə ürək normalda çalışdığından 4-6 dəfə daha çox çalışır. Bu isə bir çox hallarda ürəktutma və infarktla nəticələnir".

**Səbinə Hüseynli**

## ELAN

**2004-cü ildə alınmış Azər Məmmədov Sənan oğluna məxsus 343023 nömrəli Yeni Azərbaycan Partiyasının bileti itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**